RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 204 (9083) ÇƏRŞƏNBƏ, 21 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun işğaldan azad olunmuş Şükürbəyli kəndinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun işğaldan azad olunmuş Şükürbəyli kəndinin layihələndirilməsi və tikintisi işlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2022-ci il*

## Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 800,0 (səkkiz yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2022-ci il*

## Daşkəsən rayonunun Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yeddi min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.10-cu yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 9,5 milyon (doqquz milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2022-ci il*



## Azərbaycanın mövqeyi qəti və dəyişməzdir

### Vətən müharibəsinin yaratdığı reallıqlara qarşı çıxmaq cəhdləri nəticə etibarilə Ermənistanı sürətlə məhvə sürükləyir

BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində ABŞ Dövlət katibi Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında görüş keçirilib. Fikir ayrılıqlarının diplomatiya yolu ilə həllinin davamlı sülhə aparan yol olduğunu bildirən Antoni Blinken Birləşmiş Ştatların bu səyləri dəstəkləmək üçün əlindən gələni etməyə hazır olduğunu qeyd edib.

### Vaşinqtonun faydasız addımları

Təbii ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasına xidmət edən, problemlərin danışıqlar yolu ilə həllinə yol açan istənilən obyektiv və ədalətli təklif təqdirəlayiqdir. Bu baxımdan ABŞ Dövlət katibinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında keçirilən görüş də ilk baxışdan sülhün əldə olunmasına yönəlmiş təşəbbüs təəssüratı yaradır.

→ 4

## Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı ilə dialoq tərəfdaşıdır

Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı ilə ciddi münasibətlərə 2015-ci ildə başlayıb. 9-10 iyul 2015-ci ildə Rusiyanın Ufa şəhərində keçirilmiş təşkilatın zirvə toplantısı zamanı qəbul edilmiş qərara əsasən, Azərbaycana ŞƏT-də dialoq üzrə tərəfdaş statusu verilib. Azərbaycan hazırda ŞƏT-in üzvü olmasa da, dialoq tərəfdaşı statusuna sahibdir.

Prezident İlham Əliyevin bu günlərdə Səmərqənddə keçirilən sammitə qatılması ölkəmizlə təşkilat arasında qarşılıqlı dialoqun yüksək səviyyədə olduğunu bir daha təsdiqləyir. Dövlət başçısı sammitdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə fəxri qonaq qismində iştirak etdi. Bu, Azərbaycan Prezidentinin iyunda dövlət səfərindən sonra cari ildə Özbəkistana ikinci səfəri idi. Özbəkistan Prezidentinin dövlətimizin başçısına sammitdə fəxri qonaq qismində iştirak etmək üçün dəvət göndərməsi ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin getdikcə daha da möhkəmlənməsini ifadə edir. Eyni zamanda Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlarla yanaşı, üzvü olmadığı təşkilatların da sammit, konfrans və görüşlərinə dəvət alması, həmin tədbirlərdə fəal iştirakı ölkəmizin beynəlxalq aləmdə yüksək nüfuzunun ifadəsidir.

→ 4

◆ Müəllifi İlham Əliyevdir

## Azərbaycanın ilk "ASAN Həyat" kompleksi

### 6 il öncə Masallıda açılan mərkəz qısa müddətdə əhalinin böyük etimad və rəğbətini qazanıb

Yaradıldığı gündən fəaliyyətini "vahid məkan" prinsipi əsasında quran Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri artıq 10 ildir ölkə vətəndaşlarının xidmətindədir.

Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan yeni Azərbaycan brendi qısa müddətdə xalqın böyük etimad və rəğbətini qazanıb. 2016-cı ildən isə xidmətin fəaliyyətinin genişləndirilməsi fonunda bir yenilik yaşanıb - "ASAN Həyat" kompleksləri yaradılmağa başlanılıb və ilk belə kompleks respublikanın cənub bölgəsində - Masallı şəhərində yaradılıb.

Azərbaycanın ilk "ASAN Həyat" kompleksinin açılışı İlham Əliyevin 2016-cı il sentyabrın 3-də Masallıya səfəri çərçivəsində reallaşıb. Sentyabrın 20-dən isə mərkəz fəaliyyətə başlayıb. Masallıya səfərimiz zamanı kompleksdə yaradılan şərait və vətəndaşlara xidmətin məmnunluq səviyyəsi ilə maraqlandıq.

→ 7



### Məşğulluq sosial müdafiənin ən etibarlı formasıdır

→ 5

## Erməni faşizmi cinayət əməllərini davam etdirir

Ermənistan dövlətinin terrorçu və işğalçı siyasəti bütün dünyaya məlumdur. Ordusu imkan düşəndə yırtıcıya dönür, yetməyəndə fərarilik edir, qorxaqlığını nümayiş etdirir.

İstər müharibə, istərsə də atəşkəs dövründə öz məkrli niyyətlərindən əl çəkməyən işğalçı Ermənistanın silahlı qüvvələri yalnız Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutmaqla kifayətlənmir. İllərdir ki, dinc mülki əhalimizə qarşı da cinayət əməllərini davam etdirirlər.

→ 6



### Meşəətrafı kəndlər də qazlaşdırılır

→ 5

## Paşinyana qarşı çevrilişi bu dəfə öz partiyası hazırlayır

### "Vətəndaş müqaviləsi" yeni baş nazir axtarışındadır

Ermənistanda siyasi qarşıdurmanın daha da dərinləşməsi, keçmiş hərbi xunta ilə hakimiyyət arasında ziddiyyətlərin kəskinləşməsi müşahidə olunur.

Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə təşkil edilən etiraz aksiyaları davam edir, siyasi vəziyyət gərgin olaraq qalır. Bir həftədir davam edən aksiyalar artıq rəsmi İrəvanı ciddi şəkildə narahat edir.

Bunların fonunda Ermənistanda hakim partiya olan "Vətəndaş müqaviləsi" Nikol Paşinyanın istefa verməli olacağını da istisna etmir. "Past" nəşri öz mənbələrinə istinadən yazır ki, "Vətəndaş müqaviləsi" partiyasında mümkün forsmajor vəziyyətlə bağlı intensiv müzakirələr gedir.

→ 7

◆ 21 Sentyabr Beynəlxalq Sülh Günüdür

## Sülhə, sabitliyə, təhlükəsizliyə çağırış

Əslində, Yer kürəsinin hər gün, hər an ona ehtiyacı var. Ancaq ilin yalnız bir günü - 21 Sentyabr Beynəlxalq Sülh Günü adı ilə bütün dünyada bayram edilir.

Beynəlxalq Sülh Gününün qeyd olunması barədə qərar Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 1981-ci il noyabrın 30-da qəbul olunub. Qərarın lehinə dünyanın 192 ölkəsi səs verib.

### "Yaşasın Mütləq Dünya Sülhü"

Müharibə, təbii fəlakət, aclıq və regional qarşıdurmaların ağrı-acısını görən milyardlarla insanın çəkdiyi əzab-əziyyətləri hiss etmək üçün fürsətə çevrilən Beynəlxalq Sülh Günü ənənəvi olaraq, BMT-nin Nyu Yorkdakı baş qərargahında quraşdırılan "Sülh zəngi"nin çalınması ilə başlayır. Bu zəng Yaponiya parlamentinin bütün dünya xalqlarına hədiyyəsidir. Üzərində "Yaşasın Mütləq Dünya Sülhü" sözləri yazılmış zəng hər ilin ilk payız günündə - 21 sentyabrda səsləndikcə sakini olduğumuz Yer kürəsini, bəşəriyyəti qorumaq, əmin-amanlığa nail olmaq naminə silahların susdurulmasına çağırır.

→ 6



## Zəngəzur dəhlizi açıldıqdan sonra region ölkələrinin nəqliyyat imkanları artacaq

→ 4

# Baş nazirin müavini Əli Əhmədov Belarusun Azərbaycandakı səfiri ilə görüşüb

Baş nazirin müavini, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın həmsədri Əli Əhmədov sentyabrın 20-də Belarusun ölkəmizdəki səfiri Andrey Ravkov ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan-Belarus dostluq münasibətlərinin hərtərəfli inkişafından məmnunluq ifadə olunub, ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirilib.

Həmçinin iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.

# SOCAR-da Neftçilər Günü münasibətilə tədbir keçirilib







Sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasının 28-ci ildönümü və neft-qaz sənayesi işçilərinin peşə bayramı - Neftçilər Günü münasibətilə tədbir keçirilib.

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, öncə Azərbaycan Respublikasının iqtisadiyyat naziri və SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov, Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov, SOCAR-ın Müşahidə Şurasının üzvü, Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov, SOCAR-ın prezidenti Rövşən Nəcəf və SOCAR-ın kollektivi Fəxri xiyabanda müstəqil Azərbaycanın qurucusu, ölkəmizin yeni neft strategiyasının banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Sonra Şəhidlər xiyabanına gələn tədbir iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına canlarını fəda etmiş bütün şəhidlərimizin əziz xatirəsini dərin minnətdarlıqla anıblar, "Əbədi məşəl" abidəsinin önünə gül qoyublar.

"SOCAR Tower"də keçirilən tədbirdə iştirakçılar Ulu Öndər Heydər Əliyevin neft sənayesinin inkişafına göstərdiyi diqqət və qayğısını əks etdirən fotosərgi, həmçinin Respublika Elmi-Texniki Kitabxanası tərəfindən təqdim olunan və neft sənayesi tarixindən bəhs edən nadir kitablar ilə tanış olublar.

Neftçilər Gününə həsr olunan konfransın əvvəlində Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş hərbçilərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

SOCAR-ın prezidenti Rövşən Nəcəf tədbirdə çıxış edərək Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısını alarkən qəhrəmancasına həlak olan hərbçilərimizə Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbir diləyib.

Neftçilər Günü münasibətilə Azərbaycan neftçilərini təbrik edən Rövşən Nəcəf Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən əməkdə fərqlənən bir qrup neftçinin yüksək dövlət mükafatlarına layiq görülməsinin dövlətimizin başçısının çətin və məsuliyyətli neftçi peşəsinə verdiyi yüksək qiymətin növbəti təzahürü olduğunu bildirib və SOCAR kollektivi adından Prezidentə minnətdarlığını ifadə edib.

Rövşən Nəcəf ölkəmizin dayanıqlı və inklüziv inkişafının təməlinin Ulu Öndər Heydər Əliyevin müdrik və qətiyyətli rəhbərliyi, Prezident İlham Əliyevin uğurlu diplomatiyası nəticəsində "Əsrin müqaviləsi" ilə qoyulduğunu qeyd edib. SOCAR-ın prezidenti "Əsrin müqaviləsi"nin ölkə iqtisadiyyatının müxtəlif sahələrinin, xüsusilə neft sənayesinin və insan kapitalının davamlı inkişafına güclü təkan verdiyini və Azərbaycanın iqtisadi qüdrətini daha da artırdığını vurğulayıb. Rövşən Nəcəf ölkə rəhbərinin məqsədyönlü və uzaqgörən rəhbərliyi ilə qurulan çoxşaxəli ixrac-nəql sisteminin Azərbaycanın enerji resurslarının dünya bazarlarına birbaşa çıxışını təmin etdiyini, ölkəmizin rəqabət qabiliyyətinin artmasına və enerji təhlükəsizliyinin güclənməsinə əlverişli zəmin yaratdığını deyib.

Builki Neftçilər Gününün "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasından ilk neft hasilatının 25-ci ildönümünə təsadüf etdiyini bildirən Rövşən Nəcəf bu münasibətlə bütün xarici tərəfdaşları təbrik edib, neft sənayemizin inkişafına verdikləri töhfəyə görə onlara təşəkkür edib.

Neftçilərimizi əlamətdar gün münasibətilə təbrik edən iqtisadiyyat naziri və SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov "Əsrin müqaviləsi"nin və uğurla reallaşdırılan milli neft strategiyasının ölkəmizin sosial-iqtisadi inkişafına, iqtisadiyyata irihəcmli investisiyaların cəlb olunmasına, beynəlxalq aləmdə nüfuzunun artmasına və dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsinə xidmət etdiyini, həyata keçirilən genişmiqyaslı neft-qaz layihələrinin Azərbaycanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, tərəfdaşlarımızın etibarlı enerji təminatına da böyük töhfə verdiyini vurğulayıb.

Energetika naziri Pərviz Şahbazov neftçiləri peşə bayramı münasibətilə təbrik edib, ölkəmizdə Neftçilər Gününün təsis edilməsinin Azərbaycanın neft strategiyasının banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin neftçi peşəsinə verdiyi yüksək qiymətin, bu peşə sahiblərinin öz əzmkar zəhmətləri ilə müstəqilliyimizin möhkəmləndirilməsində oynadıqları mühüm rolun göstəricisi olduğunu bildirib. Nazir çıxışında Azərbaycanın enerji təhlükəsizliyinin təminatında və etibarlı tərəfdaş mövqeyinə yüksəlməsində "Əsrin müqaviləsi"nin davamlı töhfələrindən bəhs edib.

BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış edərək Neftçilər Günü münasibətilə təbriklərini çatdırıb. Bu günün həm də Azəri-Çıraq-Günəşli yatağı üzrə hasilatın pay bölgüsü haqqında sazişin 28-ci ildönümü ilə əlamətdar olduğunu söyləyən Bəxtiyar Aslanbəyli "Əsrin müqaviləsi"nin Ümummilli Lider Heydər Əliyevin mükəmməl, uzaqgörən strategiyasının şah əsərlərindən biri olduğunu vurğulayıb. O, bu müqavilənin həm karbohidrogen ehtiyatlarının, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlərdən biri olduğunu bildirib.

SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətindən bəhs edərək bu müqavilənin Ulu Öndər Heydər Əliyevin şəxsi nüfuzu, qətiyyətli mövqeyi və həmin dövrdə Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi danışıqlar prosesində iştirak edən İlham Əliyevin diplomatik məharəti nəticəsində imzalandığını vurğulayıb.

Sonra SOCAR-ın Baş ofisində, strukturuna daxil olan müəssisələrdə, birgə müəssisələrdə, əməliyyat şirkətlərində və tərəfdaş şirkətlərdə çalışan və əmək fəaliyyətində fərqlənən bir qrup neftçi "Fəxri neftçi" döş nişanı və Fəxri fərmanla təltif olunub.

Daha sonra SOCAR-ın prezidenti Rövşən Nəcəf tərəfindən neftçilərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladıqları təşəkkür məktubu oxunub.

Konfransda həmçinin SOCAR-ın yeni yaradılan Könüllülər qrupunun təqdimatı keçirilib. Könüllülər qrupunun üzvü Aysu Zamanova çıxışında ölkə rəhbərinin təşəbbüsü ilə başladılan könüllülük hərəkatının dövlətimizin həyata keçirdiyi gənclər siyasətinin əsas istiqamətlərindən biri olduğunu bildirib, könüllülük fəaliyyətinin gənclərin müxtəlif sahələr üzrə təcrübə qazanması və mühüm biliklərə yiyələnməsi baxımından əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbir çərçivəsində Neftçilər Gününə həsr olunmuş "Mən fəxr edirəm ki, neftçiyəm" adlı videoçarx nümayiş etdirilib.

# Bakıda "Mədəniyyətin iqtisadiyyatı: Şuşadan inkişaf impulsları" mövzusunda beynəlxalq elmi-praktik konfrans başa çatıb





Mədəniyyət Nazirliyi və Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə Şuşada təşkil edilən "Mədəniyyətin iqtisadiyyatı: Şuşadan inkişaf impulsları" mövzusunda beynəlxalq elmi-praktik konfrans sentyabrın 20-də Bakıda davam edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər.

"Şuşa ili" çərçivəsində #think4culture çağırışı ilə gerçəkləşən tədbir ölkəmizdə mədəniyyət iqtisadiyyatının inkişaf perspektivlərinə həsr olunub. Beynəlxalq konfransda 15-ə yaxın ölkədən, o cümlədən Türkiyə, Böyük Britaniya, İsrail, Almaniya, Hindistan, Qazaxıstan və digər ölkələrdən sahə üzrə ekspertlər, eləcə də yerli mütəxəssislər iştirak edirlər.

Konfransın moderatoru, startaplar üzrə tanınmış mütəxəssis, israilli ekspert Tal Katran qonaqları salamlayaraq tədbirin əhəmiyyətini yüksək qiymətləndirib. O, Şuşaya ilk səfəri ilə bağlı təəssüratlarını bölüşüb. Bildirib ki, səfər çərçivəsində gördükləri onda Azərbaycan mədəniyyəti ilə bağlı böyük təəssürat yaradıb: "İlk olaraq Qobustan Milli Tarix-Bədii Qoruğunda olduq. Burada qoruqla bağlı zəngin məlumat əldə etdik. Füzulidən keçərkən ermənilərin törətdiyi dağıntılar bizi çox məyus etsə də az bir vaxtda inşa edilərək istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı bir daha göstərir ki, az vaxtda bu yerlər öz keçmiş şöhrətini tam bərpa edəcək".

Təşkil edilən konfransın əhəmiyyətindən danışan israilli ekspert bildirib ki, tədbirdə beynəlxalq məruzəçilər var, onlar öz təcrübələrini bölüşəcək və məruzələrdə mədəniyyət iqtisadiyyatı termininin daşıdığı məna yükü tam dolğunluğu ilə bir daha diqqətə çatdırılacaq.

Mədəniyyət naziri Anar Kərimov konfransda çıxış edərək diqqətə çatdırıb ki, konfransla bağlı 15 ölkədən qonaqlar Azərbaycana gəliblər. Onlar mədəniyyət paytaxtımız Şuşaya və digər rayonlara səfər ediblər. Şuşada çox önəmli bir fikir mübadiləsi aparılıb. Bu tədbir də məhz Qarabağa qayıdışımızın, oradakı bərpa işlərimizin bir parçasıdır, bir mərhələsidir. Həm oradakı 30 illik dağıntı və vandalizmi, həm də bugünkü inkişafı əyani şəkildə görmək və təbliğatını aparmaq baxımından bu konfrans mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın öz tarixinin ən önəmli səhifələrindən birini yaşadığını vurğulayan nazir müharibədən sonra işğaldan azad olunmuş ərazilərimizdə həyata keçiriləcək mühüm vəzifələrin olduğunu diqqətə çatdırıb: "44 günlük Vətən müharibəsindən və Zəfərdən sonra bizim qarşımızda mühüm vəzifələr durur. Bu vəzifə əzəli yurd yerlərimizin dirçəldilməsindən ibarətdir. Biz işğaldan azad olunmuş ərazilərə həm də özlərinə xas mədəniyyəti qaytarmalıyıq və qaytarırıq. Şuşada və işğaldan azad olunmuş digər ərazilərdə keçirilən silsilə tədbirlər də buna misaldır".

Anar Kərimov bildirib ki, Mədəniyyət Nazirliyi tərəfindən yaradıcı sənayelərin inkişaf etdirilməsinə çox böyük önəm verilir: "Nazirliyin dəstəyi ilə Azərbaycan Yaradıcı Sənayelər Federasiyası təsis edilib. Yaradıcı sənayelərin və bu sahənin iqtisadiyyata töhfəsinin artırılması kimi mövzuları daim gündəmimizdə saxlayırıq. Mədəniyyət və yaradıcı sənayelər "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da prioritet inkişaf perspektivləri olan sahələr kimi öz əksini tapıb. Bizim başlıca vəzifəmiz isə həmin yaradıcı fəaliyyəti olan qurumlara müdaxilə etməməkdir. Əksinə, onları vahid qüvvə kimi birləşdirib, özəl sektorlarla dövlət qurumları arasında körpü rolunu oynamaqdır. Bu baxımdan dəfələrlə yaradıcı sənaye ilə məşğul olan qurumlarla, sektorlarla görüşlər keçirilir, təkliflər dinlənilir".

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev söyləyib ki, ötən dövr ərzində dünya iqtisadiyyatında qeyri-müəyyənliklər daha da artıb. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatında yüksək artım davam edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov vurğulayıb ki, xalqın mədəni səviyyəsi hər bir ölkənin inkişafına təsir göstərir: "Bildiyiniz kimi, otuz ilə yaxın idi ki, torpaqlarımız işğal altında idi. İşğal dövründə düşmən tərəfindən mədəni abidələrimiz məhv edilib. Bu gün infrastruktur layihələrlə yanaşı, mədəni abidələrimiz də bərpa olunur. Bizim əsas vəzifəmiz mədəni irsimizi gələcək nəsillərə çatdırmaqdır".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib ki, torpaqlarımızın işğaldan azad edilməsi mədəniyyətin barbarlıq üzərində qələbəsi idi: "Mən düşünürəm ki, bu tədbirin Şuşadan başlayıb Bakıda davam etməsi də buna görədir. Qonaqlarımız işğaldan azad edilmiş torpaqlarımızı ziyarət edərkən düşmənin dağıdıcı, dövlətimizin isə qurucu mədəniyyətini gördü. Çox təəssüflər olsun ki, bu gün özünü dünyada mədəni ölkə adlandıran bəzi dövlətlər qurucu mədəniyyəti deyil, dağıdıcı mədəniyyətin yanındadır. Mədəniyyət sahəsi Azərbaycan üçün həmişə prioritet olub. Mədəniyyət iqtisadiyyatına təkcə gəlir mənbəyi kimi baxmamalıyıq. Bu anlayış dövlət üçün, xalq üçün, onun mədəniyyəti üçün fərqli-fərqli imkanlar açır".

Konfrans öz işini panel iclaslarla davam etdirib. "Dialoq vasitəsilə mədəniyyət iqtisadiyyatının gücləndirilməsi", "Yaradıcı sənaye 4.0: Yeni qloballaşan mədəni iqtisadiyyata doğru", "Mədəni iqtisadiyyatın artırılması üçün investisiyalar əsas vasitə aləti kimi" və "Yaradıcı gələcəyin yetişdirilməsi" mövzularında keçirilən panel iclaslarında mövzuya uyğun çıxışlar dinlənilib.

Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova qeyd edib ki, bu gün mədəni turizm dünyada məşhur turizmlərdən biridir. Mədəni turizm iqtisadiyyatın aparıcı istiqamətlərindən biridir. Mədəniyyətin təbliğ olunmasında turizmin böyük rolu var.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bildirib ki, Mədəniyyət Nazirliyinin məqsədlərindən biri mədəniyyətə yanaşmanı dəqiqləşdirməkdir: "Bizim baxışımız sovet baxışından fərqlənir. O zaman mədəniyyət bu sahə ilə məşğul olan müəssisələrin fəaliyyəti ilə məhdudlaşırdı. Ancaq mədəniyyət daha geniş anlayışdır. Bugünkü tədbirin əsas məqsədi bu baxışı açıqlamaqdır. Mədəniyyət bütün sahələri ilə bir zövq formalaşdırır. Mədəni iqtisadiyyatın bir böyük tərəfi də qloballaşmadır. İnternetin üstünlüyü hansısa bir musiqiçinin öz əsərini dünyaya çıxarmaq imkanı verir ki, bu da qloballaşmanın nə demək olduğunu açıq-aydın göstərir".

Elnur Əliyev vurğulayıb ki, ölkəmizdə neft-qaz, kimya sənayesi barədə danışmaq mümkündür, amma yaradıcı sənayemiz yoxdur. "Biz sistemli yanaşma tətbiq etməliyik. Buna görə də birinci növbədə bu yöndə təbliğat işləri aparılmalıdır", - deyə E.Əliyev əlavə edib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov söyləyib ki, mədəniyyət və iqtisadiyyat terminlərinin bir arada səsləndirilməsi onların bağlılığından xəbər verir: "Ölkədə sosial inkişafın formalaşdırılmasında, sahibkarlıq mühitinin yaxşılaşdırılmasında mədəniyyət və yaradıcı sənayenin inkişafına diqqətin ayrılması vacib məsələlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bu sahənin inkişafına da təsir edən amillərdən biridir. İqtisadiyyat Nazirliyi olaraq bu sahənin inkişafı istiqamətində lazımi tədbirlər görəcəyik".

Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, mədəniyyət geniş bir məfhumdur. Mədəniyyət sahibkarlıqdır, iqtisadiyyatdır, inkişafdır: "Ərazilərimizin düşməndən azad olunması Qarabağda dağıntıları tam şəkildə görməyə imkan verdi. Biz bu dərəcədə böyük dağıntıların öhdəsindən gəlməliyik. Məlum olduğu kimi, ən çox dağıntıya məruz qalan obyektlər tarixi abidələrimizdir. Bununla da düşmən bizim mədəniyyətimizi silmək istəyirdi. Dünyada buna nümunələr var. Amma nəzərə alsaq ki, İkinci Dünya müharibəsindən sonra Avropadakı urbisidin aradan qaldırılmasına müəyyən yardım var idi. Amma Azərbaycan bu gün Qarabağdakı dağıntıları, oradakı urbisidi özü bərpa edir, özü aradan qaldırır".

Daha sonra çıxış edən mədəni iqtisadiyyat üzrə beynəlxalq ekspert Ornela Ramasauskaite yaradıcı ekosistemin mühüm məsələ olduğunu söylədi: "Dünən apardığım tədqiqatlar və oxuduğum məqalələr nəticəsində belə qənaətə gəldim ki, yaradıcı ekosistemin yaradılması mütləqdir. Azərbaycanın böyük mədəni-tarixi mirası var. Bu ölkə də dünyada baş verən yaradıcı proseslərin bir hissəsidir".

Daha sonra konfrans iştirakçılarının sualları cavablandırılıb.

# Şuşada Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri konsert proqramı ilə çıxış edib

Sentyabrın 20-də Şuşada Üzeyir bəy Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsert proqramı təqdim olunub.





AZƏRTAC xəbər verir ki, əvvəlcə Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin qarşısına tər güllər düzüb və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Bütün qonaqları salamlayan Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qala-şəhərdə belə bir möhtəşəm tədbirlərin keçirilməsinin qürurverici olduğunu bildirib: "Burada istənilən tədbir bizə gözəl hisslər bəxş edir. Gördüyünüz kimi, Azərbaycan mədəniyyətinin paytaxtı Şuşa özünün yeni inkişaf dövrünə qədəm qoyub. Bu gün biz Şuşada milli musiqimizi eşidirik və bu bizi çox qürurlandırır. Bu baxımdan Şuşamızın, ümumən bütün torpaqlarımızın azadlığı uğrunda öz canlarından keçərək şəhid olmuş əsgər və zabitlərimizin ruhu qarşısında baş əyirik".

Festival çərçivəsində keçirilən konsert proqramında bədii rəhbər və dirijor, Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri çıxış edib. Üzeyir bəy Hacıbəylinin heykəli qarşısında açıq havada təşkil olunan konsertin solisti, Xalq artisti Fərhad Bədəlbəylidir. Proqramda Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasından uvertüra, eləcə də dahi bəstəkarın tələbələrinin əsərləri yer alıb.

Qeyd edək ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müvafiq fərmanına uyğun olaraq, dahi bəstəkarın dünyaya göz açdığı gün ölkəmizdə hər il ənənəvi şəkildə Milli Musiqi Günü kimi qeyd olunur. 2009-cu ildən etibarən sentyabr ayında Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir bəy Hacıbəyliyə həsr olunmuş Beynəlxalq Musiqi Festivalı keçirilməyə başlayıb və dünyada böyük əks-səda doğurub. Həmin ildən başlayaraq ənənə halını almış bu festivalda görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edirlər.

Şuşa Üzeyir musiqisi üçün çox darıxmışdı. Nəhayət ki, o gün də gəlib çatdı, azad Şuşada Azərbaycan professional musiqi sənətinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin ölməz əsərləri səsləndirilir. Şuşanın dağlarında indi Üzeyir musiqisinin sədası yayılır. Erməni işğalından azad edilən Şuşada belə bir tədbirin keçirilməsi hər bir azərbaycanlının arzusu idi və bu arzu artıq bu gün reallığa çevrildi.

# Qazaxıstan və Özbəkistan respublikalarının nümayəndə heyəti Milli Müdafiə Universitetində olub

Ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin Hərbi Təhsil və Elm Departamentinin nümayəndə heyəti Milli Müdafiə Universitetində olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, Milli Müdafiə Universitetinin rektoru, professor, general-leytenant Heydər Piriyev qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib.

Daha sonra qonaqlara Milli Müdafiə Universitetinin tarixi, struktur və təhsil səviyyəsinin təşkili haqqında geniş brifinq təqdim olunub.

Görüşdə ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

* * *

Ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Müdafiə Nazirliyinin Hərbi kadrların hazırlanması idarəsinin nümayəndə heyəti Milli Müdafiə Universitetini ziyarət ediblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, qonaqlara Milli Müdafiə Universitetinin yaranma tarixi, təhsil sistemi və tədris prosesi, eləcə də elmi fəaliyyəti haqqında brifinq təqdim olunub, müzakirələr aparılıb.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında hərbi təhsil sahəsində qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Sonda qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

*AZƏRTAC*

# Milli Məclisin komitələrinin iclasları keçirilib

Sentyabrın 20-də Milli Məclisin Regional məsələlər komitəsinin 2022-ci ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi təxribat nəticəsində qəhrəmancasına şəhid olmuş hərbi qulluqçularımızın xatirəsi birdəqiqəlik sükutla ehtiramla yad edilib. Komitə sədri Siyavuş Novruzov bildirib ki, Vətən uğrunda gedən döyüşlərdə əsgərlərimizin göstərdiyi şücaət hər bir Azərbaycan vətəndaşına bir örnəkdir.

Komitə sədri gündəliyə 4 məsələnin daxil edildiyini deyib. O, əvvəlcə, Milli Məclisinin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində Regional məsələlər komitəsində görülən işlər barədə məlumat verib. Bildirilib ki, ötən sessiyalarda komitənin 4 iclası keçirilib. Bu iclaslarda "Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihələri üç oxunuşda müzakirə olunaraq Milli Məclis tərəfindən qəbul edilib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə Regional məsələlər komitəsi ölkənin müvafiq dövlət qurumları və aidiyyəti beynəlxalq təşkilatlar ilə qarşılıqlı əməkdaşlıq şəraitində səmərəli fəaliyyət göstərib. Komitənin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Tarix yazan imza" mövzusunda videokonfrans keçirilib.

Qeyd olunub ki, yaz və növbədənkənar sessiyaları ərzində komitə üzvləri tərəfindən mütəmadi olaraq vətəndaşların qəbulu keçirilib, onların müraciətlərinə baxılıb. Ümumilikdə komitəyə vətəndaşlardan 2102 müraciət daxil olub. 1704 müraciətin icrası təmin edilib, digər müraciətlər baxılması üçün aidiyyəti qurumlara göndərilib. Deputatlar həmçinin cəmiyyətin həssas qrupları, o cümlədən şəhid ailələri, qazilər, müharibə iştirakçıları və aztəminatlı ailələrlə görüşüb, onların qayğıları ilə maraqlanıblar.

Sonra Regional məsələlər komitəsinin 2022-ci ilin payız sessiyası üçün iş planının layihəsi təqdim edilib. Diqqətə çatdırılıb ki, növbəti sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin, bəzi qanunlarda dəyişikliklər edilməsi haqqında sənədlərin müzakirəsi, dinləmələrin keçirilməsi, komitəyə müvafiq orqanlardan və vətəndaşlardan daxil olan təkliflərin təhlili və ümumiləşdirilməsi nəzərdə tutulub.

Daha sonra Siyavuş Novruzov gündəliyə daxil edilən qanun layihələri barədə danışıb.

Əvvəlcə "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə" qanun layihəsi haqqında məlumat verilib. Bildirilib ki, 4 mart 2022-cil tarixli 492-VIQ nömrəli qanuna əsasən, Gəncə şəhərinin tərkibindəki Kəpəz və Nizami rayonları ləğv edilərək Gəncə şəhərinin tərkibinə birləşdirilib. Ləğv edilmiş Nizami rayonunun tərkibindəki 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri müvafiq olaraq Gəncə şəhəri tərkibində 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri və Kəpəz rayonunun tərkibindəki 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri müvafiq olaraq Gəncə şəhəri tərkibində 3 və 4 nömrəli sahə inzibati ərazi dairələri hesab edilmişdir. Həmin qanunun icrası məqsədilə "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda müvafiq dəyişiklik təklif olunur.

Sonra Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Tibbi sığorta haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda təqdim edilib.

Diqqətə çatdırılıb ki, qanun layihəsi Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 3 dekabr 2021-ci il tarixli 406-VIQD nömrəli qanuna uyğun olaraq hazırlanıb. Bununla əlaqədar sənədə daxil olan "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanuna müvafiq dəyişikliklər təklif olunur. Bu dəyişikliklər yalnız fiziki şəxslərin mülkiyyətində olan bina, su və hava nəqliyyatı vasitələrinə görə əmlak vergisinin bələdiyyə vergilərində saxlanması və yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin isə dövlət vergilərinə aid edilməsi ilə əlaqədardır.

Müzakirələr zamanı komitənin sədr müavini Elşən Musayev, üzvləri Məzahir Əfəndiyev, Aqil Məmmədov, Kamran Bayramov, Cavid Osmanov, Səbinə Xasayeva, Emin Hacıyev çıxış edərək gündəlikdəki məsələlər barədə, habelə bələdiyyələrin fəaliyyəti, onların işinin səmərəliliyinin artırılması, bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı fikirlərini açıqlayıblar. Deputatlar Ermənistanın Azərbaycan sərhədində törətdiyi təxribatlar və digər aktual məsələlərə də münasibət bildiriblər.

İclasda Milli Məclisin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Regional məsələlər komitəsində görülən işlər qənaətbəxş hesab olunub, komitənin 2022-ci ilin payız sessiyası üçün iş planı təsdiq edilib. Gündəliyə daxil edilən hər iki qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Sentyabrın 20-də Milli Məclisin Gənclər və idman komitəsinin 2022-ci ilin payız sessiyasında onlayn formatda ilk iclası keçirilib. İclasda Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev son günlərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatların qarşısını alan zaman qəhrəmancasına şəhid olmuş hərbi qulluqçularımıza Allahdan rəhmət diləyib, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralılarımıza şəfa diləyib.

Adil Əliyev diqqətə çatdırıb ki, iclasın gündəliyinə 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabat və komitənin 2022-ci ilin payız sessiyası üçün iş planı daxil edilib.

Komitə sədri əvvəlcə 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Gənclər və idman komitəsində görülən işlər barədə danışıb. Bildirib ki, ötən sessiyalarda komitə səmərəli fəaliyyət göstərib. Bu müddətdə komitənin 7 iclası keçirilib, 9 məsələ müzakirə olunub. Diqqətə çatdırılıb ki, ötən sessiyada komitəyə daxil olan 412 ərizə və məktuba baxılıb. Bundan başqa, vətəndaşların şifahi və sosial şəbəkələr üzərindən 930-a yaxın müraciəti ilə bağlı müvafiq tədbirlər görülüb.



Bildirilib ki, komitənin sədri və üzvləri hesabat dövründə Vətən müharibəsi qaziləri, şəhid ailələrinin üzvləri ilə görüşlərdə, həmçinin Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş çoxsaylı tədbirlərdə iştirak ediblər.

2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Milli Məclisin Gənclər və idman komitəsinin 31 qəbulu keçirilib və bu qəbullarda ümumilikdə 326 vətəndaş iştirak edib. Bundan başqa, ötən dövrdə ölkəmizi beynəlxalq yarışlarda təmsil edən idmançılarla və gənclərlə görüşlər keçirilib. Hesabat dövründə komitə sədri və üzvləri bir sıra ölkədaxili və beynəlxalq səviyyəli tədbirlərdə iştirak ediblər.

Sonra iclasda komitənin 2022-ci ilin payız sessiyası üçün iş planına baxılıb. Qeyd edilib ki, Milli Məclisə daxil olacaq qanun layihələri, bir sıra qanunlarda dəyişiklik edilməsi ilə bağlı məsələlərlə yanaşı, komitədə "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında", "Könüllü fəaliyyəti haqqında", "Vətənpərvərlik tərbiyəsi haqqında" qanun layihələrinin, eləcə də "Ali təhsil haqqında" qanun layihəsində gənclərlə bağlı müddəaların müzakirəsi nəzərdə tutulub.

İş planında "2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixli sərəncamına uyğun olaraq, komitə üzvlərinin gənclərin maarifləndirilməsi tədbirlərində, şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə görüşlərdə, Ermənistanın təcavüzü və həqiqətlərimizin dünyaya çatdırılmasında fəal iştirakının təmin edilməsi nəzərdə tutulub.

Müzakirələrin sonunda Gənclər və idman komitəsinin Milli Məclisin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə gördüyü işlərlə bağlı hesabatı məqbul sayılıb və komitənin 2022-ci ilin payız sessiyası üçün iş planı təsdiqlənib.

Onlayn iclasda komitənin sədr müavini Şahin İsmayılov, üzvləri Mahir Abbaszadə, Ülvi Quliyev, Elnur Allahverdiyev, Cavid Osmanov, Könül Nurullayeva, Sevinc Hüseynova, Ramil Həsən, Vüqar İskəndərov və Cəbi Quliyev iştirak ediblər.

* * *

Sentyabrın 20-də Milli Məclisin Səhiyyə komitəsinin 2022-ci ilin payız sessiyasında ilk iclası keçirilib. İclası açan komitə sədri Əhliman Əmiraslanov 2022-ci ilin payız sessiyasında deputatlara uğurlar diləyib.

Komitənin sədri Ermənistan tərəfinin Azərbaycanla sərhəddə törətdiyi son təxribatlardan söz açaraq şəhid olan qəhrəman hərbçilərimizə rəhmət, yaxınlarına səbir diləyib, yaralılarımızın tezliklə sağalmalarını arzulayıb. İclas iştirakçıları şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Sonra komitə sədri iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini bildirib. İlk olaraq müzakirəyə Milli Məclisin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabat təqdim olunub. Komitə sədri bildirib ki, hesabat müddətində komitənin 13 iclası keçirilib, həmin iclaslarda 14 məsələyə baxılıb. Əhliman Əmiraslanov baxılan məsələlər haqqında fikirlərini söyləyib, qəbul olunan qanunların əhəmiyyətindən danışıb.

Qeyd olunub ki, bundan başqa Səhiyyə komitəsi Əmək və sosial siyasət komitəsi ilə birgə "Ölkədə icbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlər, hazırkı vəziyyət və gələcək planlar" mövzusunda Şuşa şəhərində dinləmə keçirib.

Bildirilib ki, hesabat dövründə komitəyə daxil olan 150-yə yaxın ərizə və şikayətə baxılıb, müraciətlərdə qaldırılan məsələlərlə bağlı müvafiq tədbirlər görülüb, həmçinin komitənin sədri tərəfindən 53 vətəndaş qəbul edilib.

Gündəliyin ikinci məsələsi olan Milli Məclisin Səhiyyə komitəsinin 2022-ci ilin payız sessiyası üçün iş planı ilə bağlı Əhliman Əmiraslanov diqqətə çatdırıb ki, qarşıdakı sessiyada komitəyə qanunvericilik subyektlərindən daxil olacaq qanun layihələrinin, o cümlədən Büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması nəzərdə tutulub. Həmçinin "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsinin müzakirəsi, "Koronavirus (COVID-19) ilə bağlı ölkədəki mövcud vəziyyət və görülən tədbirlər", "İcbari tibbi sığortanın tətbiqi ilə bağlı normativ-hüquqi aktlara dəyişikliklərin edilməsi", "Tibbi tullantıların idarə edilməsi" və digər mövzularda dinləmələrin keçirilməsi planlaşdırılıb.

Komitə sədri gündəliyin üçüncü məsələsinin Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Tibbi sığorta haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olduğunu və komitənin layihənin "Tibbi sığorta haqqında" qanuna təklif edilən dəyişiklikləri müzakirə edəcəyini bildirib.

Layihə ilə bağlı Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev məlumat verib.

Adil Vəliyev sənədin Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 3 dekabr 2021-ci il tarixli qanuna uyğun hazırlandığını diqqətə çatdırıb. O bildirib ki, layihədə əsasən iki kateqoriya üzrə - Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslərin (toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq və digər oxşar fəaliyyət, məişət avadanlığı təmiri ilə məşğul olanlar, çəkməçi, dərzi, bərbər fəaliyyəti ilə məşğul olan şəxslər və sair) və Vergi Məcəlləsinin 218.4.1-ci maddəsində nəzərdə tutulan fərdi qaydada (muzdlu işçi cəlb etmədən) avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən fiziki şəxslərin (mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə ölkə ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər) icbari tibbi sığorta ilə əhatə olunması nəzərdə tutulub.

Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, komitə üzvləri İlham Məmmədov, Sədaqət Vəliyeva, Məlahət İbrahimqızı, Kamilə Əliyeva, Kəmaləddin Qafarov gündəlikdəki məsələlərlə bağlı çıxış ediblər. Çıxışlarda deputatlar icbari tibbi sığortanın həyata keçirilməsində vətəndaş məmnunluğunun artırılması, icbari tibbi sığortanın əhatə dairəsinin genişləndirilməsi, dərman bazarının keyfiyyətinin və əlçatanlığının yaxşılaşdırılması, orqanların transplantasiyası kimi səhiyyənin aktual məsələləri ilə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər. Komitə üzvləri şəhid ailələri və qazilərə tibbi xidmətlərin göstərilməsinin, ailə həkimi və digər sahələrin qanunla tənzimlənməsinin və "Əhalinin sağlamlığı haqqında" qanunun ekspertizasının aktuallığını da dilə gətiriblər.

Deputatlar Milli Məclisin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabatı qənaətbəxş hesab ediblər, komitənin 2022-ci ilin payız sessiyası üçün iş planını təsdiqləyiblər, gündəlikdəki qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

* * *

Sentyabrın 20-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2022-ci ilin payız sessiyasında ilk iclası keçirilib.

İclasda komitənin sədri Sadiq Qurbanov əvvəlcə sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi son təxribatlardan söz açıb. Bildirib ki, Ermənistan silahlı qüvvələrinin sərhəddə törətdikləri genişmiqyaslı təxribatın qarşısı rəşadətli Azərbaycan Ordusu tərəfindən uğurla alınıb.

İclas iştirakçıları təxribatların qarşısını alarkən şəhid olan Vətən övladlarının xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Sonra Sadiq Qurbanov bildirib ki, iclasın gündəliyinə 2022-ci ilin yaz sessiyası dövründə komitədə görülən işlər barədə hesabat, komitənin 2022-ci ilin payız sessiyası üçün iş planı ilə bağlı məsələlər, İnzibati Xətalar Məcəlləsində və "Ətraf mühitin mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri daxil edilib.

Milli Məclisin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində görülən işlər barədə məlumat verən Sadiq Qurbanov diqqətə çatdırıb ki, yaz sessiyası dövründə komitədə 11 iclas keçirilib, 29 məsələyə baxılıb.

Qeyd olunub ki, hesabat dövründə komitəyə vətəndaşlardan və bir sıra təşkilatlardan müxtəlif məzmunlu 161 məktub, ərizə və sənəd daxil olub. Məktublarda göstərilən problemlərin həlli ilə əlaqədar aidiyyəti qurumlara müraciət ünvanlanıb. Komitə üzvləri tərəfindən seçicilər, şəhid ailələri və qazilərlə bir sıra görüşlər keçirilib, onları narahat edən məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görülüb.

Ötən dövr ərzində Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü olan deputatlara ümumilikdə 1256 müraciət daxil olub. Bu müraciətlərdən 347-si yazılı, 909-u isə şifahi xarakter daşıyıb.

Sonra komitənin 2022-ci ilin payız sessiyası üçün iş planının layihəsi təqdim edilib. Qeyd olunub ki, iş planına "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya" çərçivəsində Suraxanı poliqonunda tullantıların idarə olunması ilə bağlı tədbirlərin, Hacıqabul gölünün mövcud vəziyyəti və bərpası istiqamətində işlərin görülməsi üçün komitə üzvlərindən ibarət komissiyanın təşkil edilməsi, qlobal iqlim dəyişikliklərinin Azərbaycana təsiri ilə bağlı dinləmələrin keçirilməsi, içməli su və suvarma suyu problemi, suyun keyfiyyəti və onun təmizlənməsi texnologiyaları barədə müzakirələrin təşkili, "yaşıl enerji" zonasının yaradılması və "yaşıl enerji" məkanı prinsiplərinə əsaslanan bərpaolunan enerjinin iqtisadiyyatın bütün sahələrində tətbiqi ilə bağlı müzakirələr və digər məsələlər daxil edilib.

Daha sonra iclasda İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi birinci oxunuşda təqdim edilib. Bildirilib ki, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb və həmin qanunun pozulmasına görə inzibati məsuliyyəti müəyyən edir. Layihədən də göründüyü kimi, müvafiq dəyişikliklər İnzibati Xətalar Məcəlləsinin 279-cu maddəsinin yalnız dispozisiyasına təklif edilir. Bu dəyişikliklər "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanunun enerji auditi və enerji idarəçisi (menecer) haqqında müddəalarının tələblərindən, habelə enerji effektivliyi potensialının qiymətləndirilməsi və enerji effektivliyi üzrə öhdəliklərdən irəli gəlir.

Komitə sədri gündəliyin sonuncu məsələsi - "Ətraf mühitin mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Qeyd edib ki, qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə əsasən hazırlanıb. Həmin bənddə təsbit olunub ki, dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi üçün bu prinsipin sahəvi normativ hüquqi aktlardan təsbit edilməsi, habelə bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması təmin edilməlidir. Bununla əlaqədar qeyd edilən tələbin sahəvi qanunlarda əks olunmasına zərurət yaranır, nəticədə həmin tələbin sahəvi qanunlarda əks olunması onun daha işlək və tətbiqedilən olmasını təmin edəcəkdir. Qanun layihəsinin qəbulu vətəndaşların sənəd və ya məlumatın toplanması və təqdim edilməsi ilə bağlı problemlərinin aradan qaldırılmasına və vaxt itkisinin azaldılmasına, bu əsasda vətəndaş məmnunluğunun artırılmasına, habelə ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə və qurumlararası elektron inteqrasiyanın gücləndirilməsinə xidmət edəcəkdir.

Müzakirələr zamanı çıxış edən komitə sədrinin müavini Asim Mollazadə, komitənin üzvləri İltizam Yusifov, Məşhur Məmmədov, Nəsib Məhəməliyev gündəlikdəki məsələlərlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər. Deputatlar eyni zamanda Ermənistanın Azərbaycan sərhədində törətdiyi təxribatlara və digər aktual məsələlərə münasibət bildiriblər.

İclasda 2022-ci ilin yaz sessiyasında komitədə görülən işlər barədə hesabat məqbul sayılıb, 2022-ci ilin payız sessiyasının iş planı təsdiq edilib. Gündəliyə daxil edilən iki qanun layihəsi isə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Qadın əməyinin tətbiq edildiyi peşə və iş yerləri artırılacaq

Azərbaycan Respublikasında qadınlara qarşı ayrı-seçkiliyin bütün halları qanunvericiliklə qadağan olunub. Cəmiyyət həyatının bütün sahələrində gender bərabərliyinin və qadın hüquqlarının təmin olunması, müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Dövlət başçısının imzası ilə Milli Məclisə daxil olan "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsində də əmək münasibətlərində iştirak sahəsində gender bərabərliyi prinsipinə tam əməl olunması, qadınların əmək bazarında iştirakı ilə bağlı maneələrin aradan qaldırılması üçün qanunvericiliyə dəyişikliklər nəzərdə tutulub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qanun layihəsinə əsasən mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan 674 peşə (vəzifə) və iş yeri azaldılaraq 204 müəyyən ediləcək, eyni zamanda qadağan edilən peşə (vəzifə) və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara tətbiq ediləcək.

Nəticədə respublikada əmək münasibətlərinin və məşğulluq imkanlarının gender bərabərliyi prinsipləri əsasında qurulmasında, kişi və qadınlara bərabər rəftar və məşğulluq imkanlarının yaradılmasında əsaslı dönüş yaranacaq, ölkə üzrə qadınların orta əməkhaqlarının kişilərin orta əməkhaqqına yaxınlaşması təmin ediləcək.

*"Azərbaycan"*

# Təhsil fəaliyyəti ilə bağlı bir sıra vasitələr gömrük rüsumundan azad ediləcək

Prezident İlham Əliyevin imzası ilə Milli Məclisə daxil olmuş "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində təhsil fəaliyyəti ilə bağlı idxal edilən bir sıra avadanlıqların, cihazların, qurğuların və digər vasitələrin gömrük rüsumundan azad edilməsi nəzərdə tutulub.

Gömrük rüsumlarından azad edilən avadanlığın, cihazların, qurğuların və təhsil fəaliyyəti ilə bağlı olan digər vasitələrin siyahısı müvafiq dövlət orqanı tərəfindən təsdiq ediləcək. Qanuna təklif olunan dəyişikliklər 2023-cü il yanvarın 1-dən 2 il ərzində qüvvədə olacaq.

Dəyişikliklər ümumi təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, bu müəssisələrdə təhsil alanların daha keyfiyyətli praktiki biliklər əldə etməsinə, bütövlükdə təhsilin mühüm pilləsi olan ümumi təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edəcək.

*"Azərbaycan"*




# Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı ilə dialoq tərəfdaşıdır

*Əvvəli 1-ci səh.*

### ŞƏT sammiti Azərbaycan üçün çox əhəmiyyətli tədbir idi

2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir. Bu təşkilatla əməkdaşlığını uğurla inkişaf etdirən Azərbaycan ŞƏT-də müşahidəçi statusu almaq niyyətindədir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində sürətlə inkişaf edərək regionda ən nüfuzlu dövlətə çevrilən Azərbaycanın təşkilatda müşahidəçi statusu alması bu nüfuzlu qurum üçün də böyük önəm daşıyır. Qeyd etmək vacibdir ki, orada təmsil olunan ölkələr də Azərbaycanı öz aralarında görmək niyyətlərini açıq şəkildə bəyan edirlər. Bu ölkələrlə əməkdaşlıq çərçivəsində Azərbaycan özünün nəqliyyat-logistika imkanlarını daha da artıracaq.

### Təşkilatın Pekindəki mənzil-qərargahında Nizami Gəncəvinin büstü ucaldılıb

Sammit çərçivəsində dövlət başçısı bir sıra vacib görüşlər də keçirdi. Həmin görüşlərdə də siyasi, iqtisadi və digər mühüm məsələlər müzakirə olundu. Qeyd edildi ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artmaqdadır. Azərbaycan həm regionda, həm də beynəlxalq təşkilatlarla əməkdaşlıqda böyük əhəmiyyət daşıyan ölkələrdəndir. Azərbaycana bu təşkilatda olan hörmətin göstəricisidir ki, 2021-ci ildə ŞƏT-in Pekindəki mənzil-qərargahında Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi qeyd edilib. Qərargahın binasında dahi şairin büstü ucaldılıb. Qeyd edək ki, dahi Nizami Gəncəvi Çin filosofu Konfutsidən sonra ŞƏT-in qərargahında büstü qoyulan ikinci tarixi şəxsiyyətdir.

### Ermənistan iştirakdan imtina etdi

Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu iki il əvvəl olduğu kimi, bu ilin sentyabrında da Ermənistan silahlı qüvvələrinin layiqli cavabını verdi. Məhz bu hadisələrdən sonra çıxılmaz vəziyyətə düşən Ermənistanın baş naziri Nikol Paşinyan ŞƏT-in Səmərqənddəki Zirvə görüşündə iştirak etməyəcəyini bəyan etdi və təbii ki, bu da gözlənilən idi. Daim Azərbaycan Prezidenti İlham Əliyevin sarsılmaz, qətiyyətli və sərt arqumentləri qarşısında gülünc və isterik vəziyyətə düşən Ermənistanın baş naziri Nikol Paşinyan yenidən həmin vəziyyətə düşəcəyindən çəkinərək ŞƏT-in Zirvə görüşündə iştirak etməkdən boyun qaçırdı.

### ŞƏT üzvləri ilə iqtisadi və siyasi əlaqələr güclənəcək

ŞƏT 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Qurumun Səmərqənd sammitində İranın tamhüquqlu üzv kimi qəbul edilməsindən sonra ŞƏT üzvlərinin sayı 9 olub. Bunlar Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan və İrandır. Əfqanıstan, Monqolustan, Belarus müşahidəçi üzvlər, Azərbaycan, Türkiyə, Şri-Lanka, Kamboca, Nepal, Ermənistan, Misir, Qətər, Səudiyyə Ərəbistanı dialoq tərəfdaşlarıdır. Təşkilatın əsas məqsədləri sırasına üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə effektiv əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılması daxildir. ŞƏT-in iki daimi orqanı fəaliyyət göstərir ki, bunlardan biri Pekində yerləşən Katiblik, digəri Daşkənddə yerləşən Terrorizmə qarşı Regional Strukturdur. Təşkilat üzv ölkələr arasında qarşılıqlı faydalı tərəfdaşlıq şərtləri əsasında bərabərhüquqlu iqtisadi və siyasi qarşılıqlı əlaqələrin yaradılması, inkişaf etdirilməsi baxımından da mühüm rol oynayır. Bu mənada ölkəmizin bu sammitdə iştirak etməsi tarixi əhəmiyyət kəsb edir. Qardaş Türkiyə həmişə bu təşkilatda tərəfdaş kimi iştirak edir. Türkiyənin dünyadakı siyasi nüfuzu və iqtisadi qüdrəti onu təşkilatın tərəfdaşına çevirib. Türkiyə ŞƏT-in bütün tədbirlərinə dəvət alır və təşkilatda söz sahibidir.

### ŞƏT-lə əməkdaşlıq Azərbaycan üçün böyük perspektivlər açır

Prezident İlham Əliyev sammitdə dərinməzmunlu çıxış edərək mühüm geosiyasi və coğrafi məkanda yerləşən Azərbaycanın Avropa və Asiyanın iqtisadi, ticarət əlaqələrində rolundan danışıb. Zəngəzur dəhlizinin açılması da ŞƏT üçün nəqliyyat-logistika sferasında əlavə üstünlüklər yaradacaq. Təşkilatın Səmərqənddə keçirilən sammitində bu dəhlizlə bağlı Prezident İlham Əliyev qeyd edib: "Zəngəzur dəhlizinin açılması region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və bu marşrut üzərində yerləşən bütün ölkələr üçün faydalı olacaq".

Dövlət başçısı çıxışı zamanı Ermənistanın Azərbaycanla dövlət sərhədində törətdiyi genişmiqyaslı hərbi təxribatların normallaşdırma prosesinə böyük zərbə vurduğunu da həmkarlarının diqqətinə çatdırdı. Təbii ki, buna görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Sammit çərçivəsində keçirilən ikitərəfli görüşlərdə də Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olundu.

Əməkdaşlıq etdiyimiz ölkələrin sayının çox olması bizim üçün həm siyasi, həm də iqtisadi baxımdan çox önəmlidir. Son dövrlərdə baş verən hadisələr region ölkələri ilə əməkdaşlığın çox əhəmiyyətli olduğunu bir daha təsdiqlədi. Qurumla əməkdaşlıq, dövlət başçımızın sammitdə iştirakı Azərbaycana həm də haqq işini bütün dünyaya təqdim etmək üçün lazımdır.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın mövqeyi qəti və dəyişməzdir

## Vətən müharibəsinin yaratdığı reallıqlara qarşı çıxmaq cəhdləri nəticə etibarilə Ermənistanı sürətlə məhvə sürükləyir

*Əvvəli 1-ci səh.*

Xüsusən bu görüşün bir neçə gün əvvəl dövlət sərhədində Ermənistanın təxribatları ilə əlaqədar baş vermiş hərbi toqquşmadan sonraya təsadüf etməsi Vaşinqtonun ziddiyyətlərin danışıqlar masası ətrafında yoluna qoyulmasına tərəfdar olduğu görüntüsünü ortaya qoyur.

Proseslərin sonrakı gedişatı ABŞ-ın bu məsələdə nə qədər səmimi olduğunu göstərəcək. Lakin tarixi təcrübə, eləcə də Vətən müharibəsindən sonrakı proseslər və son günlərdə baş verənlər Azərbaycan cəmiyyətində ABŞ-la bağlı konkret rəy formalaşdırıb. Bu da ondan ibarətdir ki, Vaşinqton artıq həllini tapmış Dağlıq Qarabağ məsələsində ədalətli olmayıb.

Hələ Vətən müharibəsinə qədər ABŞ rəhbərliyinin artıq keçmişdə qalmış Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ortaya qoyduğu mövqe problemi həll etməkdən çox uzaq olub. ABŞ rəsmiləri problemin danışıqlar yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyini bildiriblər. 44 günlük müharibədən sonra ömrünü başa vurmuş ATƏT-in Minsk qrupunun həmsədri kimi də ABŞ-ın fəaliyyəti bu mövqeyə əsaslanıb. Lakin Azərbaycanın beynəlxalq konvensiya və sənədlərlə təsbit edilmiş hüquqları məlum olsa da, bütün beynəlxalq təşkilatlar və dövlətlər Qarabağı Azərbaycan ərazisi kimi tanısa da, ABŞ istər Minsk qrupunun həmsədri, istərsə də qlobal siyasi proseslərdə güclü mövqeyi olan bir dövlət kimi problemin ədalətli yolla həll olunmasına heç vaxt dəstək verməyib. Vaşinqton daimi üzvü olduğu BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrin icra edilməsində heç vaxt qətiyyət göstərməyib.

Azərbaycan ərazilərinin uzun illər işğal altında qalmasının əsas səbəbi də məhz bu idi və təsadüfi deyil ki, bütün bunlar ABŞ-ın ikili standartlardan çıxış edən dövlət təəssüratını formalaşdırıb.

### Ömrünü başa vurmuş Minsk qrupunu canlandırmaq cəhdi əbəsdir

ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın edə bilmədiklərini İkinci Qarabağ müharibəsində Azərbaycan güc yolu ilə təmin etdi. Artıq Azərbaycan ərazi bütövlüyünü bərpa edib, Dağlıq Qarabağla probleminə son qoyub. 30 ilə yaxın müddətdə öz vəzifələrini yerinə yetirə bilməyən Minsk qrupunun fəaliyyətinə də bundan sonra ehtiyac yoxdur və müharibənin başa çatmasından sonra bu missiya faktiki olaraq dayanıb.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasına gəldikdə, danışıqlar ötən ilin dekabrından "Brüssel formatı" çərçivəsində davam edib. Və bu formatda aparılan danışıqlar, müzakirə olunan məsələlər iki dövlət arasında sülhün təmin edilməsi, regionda kommunikasiyaların yaradılması və üçtərəfli bəyannamələrlə Ermənistanın üzərinə götürdüyü digər öhdəliklərin yerinə yetirilməsi ilə bağlıdır. Yəni bu danışıqlarda artıq "Dağlıq Qarabağ" müzakirə olunmur, bu ifadə, ümumiyyətlə, işlədilmir, Minsk qrupunun adı çəkilmir. Görünən odur ki, müharibənin başa çatmasından sonra yaranan bu reallıqlar Avropa İttifaqı tərəfindən də qəbul edilir.

ABŞ bu danışıqlara dəstək verdiyini gizlətməyib. Məsələn, bu il aprelin 5-də Dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edərək aprelin 6-da Brüsseldə Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə ABŞ-ın önəm verdiyini bildirib.

Bununla belə, ABŞ-ın zaman-zaman Minsk qrupunun fəaliyyətini canlandırmağa cəhd etməsi qəbuledilməzdir və heç bir halda regionda sülhün əldə olunmasına xidmət etmir. Tarixin arxivinə göndərilmiş Minsk qrupu ilə bağlı Azərbaycanın mövqeyi ən yüksək səviyyədə dəfələrlə və aydın şəkildə ifadə olunub. Bir müddət əvvəl Azərbaycan Xarici İşlər Nazirliyindən bununla bağlı bildirilib: "Faktiki olaraq fəaliyyət göstərməyən Minsk qrupunun "reanimasiya" edilməsi cəhdləri ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən uzaqlaşması ilə nəticələnə bilər. Qarabağ münaqişəsi həll olunub və Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Beynəlxalq ictimaiyyət, o cümlədən tərəfdaşlarımız anlamalıdır ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə danışıqların Qarabağ məsələsi ilə əlaqələndirilməsi heç də normallaşmaya xidmət etmir".

Əlbəttə ki, bu kimi reallıqlara cavab verməyən addımlar ABŞ-ın Vətən müharibəsinə qədər ortaya qoyduğu fəaliyyətin analogiyasını təşkil edir, Vaşinqtonun qeyri-səmimi mövqeyindən xəbər verir.

### Nensi Pelosinin təxribatı ABŞ-ın nüfuzunu bir daha zədələdi

ABŞ-ın bu gün Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində təşəbbüslərinin səmimiliyini şübhə altına salan başqa bir məqam ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin bir neçə gün əvvəl Ermənistana səfəri zamanı verdiyi açıqlamadır.

Məlum olduğu kimi, Nensi Pelosinin bir müddət əvvəl Tayvan regionuna səfəri qızışdırıcı məqsəd daşımaqla, regionda vəziyyəti xeyli gərginləşdirmişdi. Rəsmi Pekin N.Pelosinin ABŞ Nümayəndələr Palatasının rəhbəri olduğunu əsas götürərək, onun Tayvana səfərini böyük siyasi təxribat kimi xarakterizə etmişdi.

Beləliklə, Tayvan regionuna provokativ səfər edən N.Pelosi bu dəfə eyni missiya ilə Ermənistana səfər etdi. Əslində bu, sıradan bir səfər kimi nəzərdən də keçirilə bilərdi, əgər N.Pelosi bölgədəki vəziyyəti təhrif edən açıqlama ilə çıxış etməsəydi. Onun tərəfindən Azərbaycana qarşı irəli sürülən əsassız və ədalətsiz ittihamlar qəbuledilməzdir.

Azərbaycan bölgədə genişmiqyaslı yenidənqurma işləri həyata keçirən və keçmiş məcburi köçkünləri bölgədə yerləşdirən tərəf kimi sabitliyin pozulmasında qətiyyən maraqlı deyil. Bu baxımdan Azərbaycanı Ermənistan ərazisinə müdaxilədə ittiham etmək tamamilə əsassızdır və cəfəngiyyatdan başqa bir şey deyil. Eyni zamanda Ermənistan hələ də Qazaxın yeddi kəndini işğal altında saxlayır və Azərbaycanı ittiham edən N.Pelosinin bu kimi faktları görməzdən gəlməsi və Azərbaycanı ittiham etməsi ABŞ-ın Azərbaycan ictimai rəyində onsuz da aşağı olan nüfuzunu daha da zəiflətdi.

### Azərbaycan maraqlarını qətiyyətlə təmin edir

ABŞ və eləcə də Fransa münasibətlərin normallaşdırılmasının qarşısını alan bu cür təxribatçı addımlar atmaqdansa, Brüssel gündəliyini dəstəkləsələr daha səmimi olarlar, regionda sülhün təmini üçün töhfə verə bilərlər. Amma görünən odur ki, Vətən müharibəsinə qədər öz mövqeləri ilə əslində Ermənistanın işğal siyasətinə dəstək verən bu dövlətlər indi Ermənistanı qızışdırır və sülh gündəliyinin irəli getməsinə, uğur qazanmasına imkan vermirlər. Avqustun 31-də Brüsseldə keçirilən görüşdən sonra Ermənistanın sülh gündəliyindən imtina etməsi və təxribatlara əl atması bunu təsdiq edir. Bu siyasi mərkəzlər bir tərəfdən Minsk qrupunu canlandırmağa çalışır, digər tərəfdən Ermənistana əsassız və mənasız ümidlər verirlər. Bu fonda onların Şarl Mişelin və Avropa İttifaqının fəaliyyətinə geosiyasi qısqanclıqla yanaşdıqları da aydın görünür.

İstər N.Pelosinin açıqlamasından, istər fəaliyyətini dayandırmış Minsk qrupunun canlandırılması cəhdlərindən, istərsə də Fransanın BMT TŞ-də sərhəd toqquşmasını gündəliyə gətirməsindən sonra Azərbaycan ABŞ və Fransaya etibar edə bilməz. Azərbaycan öz maraqlarını qətiyyətlə təmin edir və edəcək. Müxtəlif provokasiyalarla alternativ gündəlik yaratmaq cəhdləri isə nəticə etibarilə Ermənistanı sürətlə məhvə sürükləyir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Zəngəzur dəhlizi açıldıqdan sonra region ölkələrinin nəqliyyat imkanları artacaq



Azərbaycan Prezidenti İlham Əliyev bir neçə gün öncə Özbəkistana səfəri zamanı Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitindəki çıxışında demişdir: "2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradır. Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və marşrut boyu yerləşən bütün ölkələr üçün faydalı olacaq".

Böyük zəfərlə başa çatan Vətən müharibəsinin tarixi nailiyyətlərindən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlı proseslərə başlanılmasıdır.

Bu məsələdə Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş nazirinin imzaladığı, Azərbaycanın zəfərini rəsmiləşdirən 10 noyabr Bəyanatında nəzərdə tutulan öhdəliklərin mühüm rolu var. Zəngəzur dəhlizi regional və beynəlxalq əhəmiyyətə malik olduğundan Azərbaycan dünyanın strateji hədəfləri üçün açar dövlətdir. Bu, artıq Azərbaycanın birmənalı şəkildə bölgənin lider dövləti, o cümlədən dünya üçün strateji ölkə olmasını açıq şəkildə ortaya qoyur.

Prezident İlham Əliyev hələ Vətən müharibəsinin gedişi zamanı bölgədə kommunikasiya xətlərinin açılmasının, Zəngəzur dəhlizinin bərpa olunmasının vacibliyini dəfələrlə vurğulamışdır. Yeni reallıqların yaxın gələcəkdə böyük əhəmiyyətini və səmərəsini hiss edən dünya gücləri də Zəngəzur dəhlizinin yaradılmasında birmənalı olaraq Azərbaycanı dəstəkləyirlər. Zəngəzur dəhlizinin bərpası nəticəsində regionun mənzərəsinin dəyişəcəyi haqda Gürcüstan, İran, Türkiyə və Rusiya, habelə regionda marağı olan Qərb, ərəb dövlətləri, o cümlədən Çin, Qazaxıstan, Özbəkistan, Türkmənistan və digər xarici ölkələrin kütləvi informasiya vasitələrində çoxsaylı materiallar dərc edilib.

Özbəkistan və Türkmənistan prezidentləri səviyyəsində Cənubi Asiya və Cənubi Qafqazın nəqliyyat-logistika imkanlarına yanaşma da deməyə əsas verir ki, Mərkəzi Asiya ölkələrinin yeni nəqliyyat dəhlizlərindən, o cümlədən Azərbaycanın tranzit imkanlarından istifadədə maraqlar böyükdür. Zəngəzur dəhlizi ilə bağlı digər vacib məqamlardan biri də Aşqabad müqaviləsi ölkələrinin Avropaya reinteqrasiyası üçün yeni perspektivlər yaratmasıdır. Aşqabad müqaviləsi Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanıb. Bu ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizi vasitəsilə Avrasiya bazarlarına çatdırılması Şərqi Zəngəzur və Qarabağın iqtisadi potensialının artırılmasında da xüsusi rol oynaya bilər.

Artıq bir çox Asiya ölkələri yeni imkanların fərqindədir. Xüsusilə Mərkəzi Asiya ölkələrinin yeni bazarlara çıxışında Zəngəzur dəhlizinin iqtisadi önəmi çox dəyərlidir. Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitində bu məsələyə toxunan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bildirmişdir ki, nəqliyyat-kommunikasiya və iqtisadi-ticari sahələrdə Azərbaycan ilə regional əməkdaşlığın inkişaf etdirilməsi xüsusi maraq doğurur.

Lakin hələ ki, Ermənistan elə özü üçün də yeni imkanlar yaradacaq, iqtisadiyyatını dirçəldəcək dəhlizin açılmasına mane olmağa, müxtəlif bəhanələrlə münasibətlərin normallaşma prosesinə zərər vurmağa çalışır.

Azərbaycanın mövqeyi bütün dünyaya bəllidir. Məqsəd Rusiya və Avropa İttifaqının vasitəçiliyi ilə əldə olunan razılaşmaların şərtlərini tam icra etməkdir. Azərbaycan həm qalib ölkədir, həm də davamlı sülhün təmin edilməsini istəyir. Bu istiqamətdə qarşı tərəfə təkliflər verir. Amma görünən odur ki, ermənilər müxtəlif manevrlərlə prosesi ləngidir, heç kimə faydası olmayan hərəkətlər edirlər. İqtidarda olan şəxslər fərqli fikirlərlə erməni xalqının onsuz da dumanlı düşüncələrini bir qədər də bulandırır. Ermənistan baş nazirinin bir-biri ilə heç bir əlaqəsi olmayan vədlər verməsi, açıqlamalar etməsi də bunu təsdiqləyir. Bir gün Zəngəzur dəhlizinin yaradılmasının öz ölkəsi üçün faydalarından danışan erməni rəhbər, ertəsi gün bununla heç bir əlaqəsi olmayan ifadələr işlədir.

Ekspertlərin fikrincə, əgər ermənilər doğru seçim etsələr, bu, onların iqtisadiyyatı üçün faydalı ola bilər. Bununla əhalisinin rifah səviyyəsinin bir qədər yüksələ biləcəyi də heç kəsdə şübhə yaratmır. Lakin ölkə daxilindəki xaosu, anarxiyanı həll etmək görünür, ermənilər üçün o qədər də asan deyil. Çünki bu ölkədə hər ağızdan bir avaz gəlir. Belə olan halda xalq da nə edəcəyini, kimə inanacağını bilmir.

Reallıq isə odur ki, nə olursa-olsun Ermənistan üçtərəfli Bəyanatın müddəalarını icra etməlidir. Ermənistan indiki mərhələdə istəsə belə sülh danışıqlarına və dəhlizin açılmasına dirəniş göstərə bilməz. Çünki bu, indiki mərhələdə nə Rusiyanın, nə də Avropa İttifaqının maraqları ilə üst-üstə düşür. Burada qeyd edilməli mühüm məsələlərdən biri də odur ki, ermənilərin seçim haqqı yoxdur. Prezident İlham Əliyevin beynəlxalq tədbirlərdə, ictimaiyyətlə görüşlərində dəfələrlə dediyi kimi, Zəngəzur dəhlizi açılmadan heç bir davamlı sülhdən söhbət gedə bilməz. Belə olan halda əməkdaşlıq da müzakirə mövzusu deyil. Odur ki, Ermənistan tezliklə rəsmi şəkildə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli, dəhlizin açılmasına və bu istiqamətdə işlərin yüksək səviyyədə davam etdirilməsinə şərait yaratmalıdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Məşğulluq sosial müdafiənin ən etibarlı formasıdır

Azərbaycanda icra edilən islahatların hədəfi ölkənin iqtisadi inkişafı ilə yanaşı, əhalinin sosial rifahını yaxşılaşdırmaqdır. Bu islahatlar sayəsində açılan iş yerləri məhsul istehsalını artırmaqla bərabər, insanların məşğulluğunun təmin olunmasına xidmət edir. Dünya təcrübəsi göstərir ki, əhalinin sosial müdafiəsinin ən etibarlı forması məşğulluqdur.

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bəyan etmişdir ki, dövlətin apardığı siyasətin əsas hədəfi Azərbaycan vətəndaşının sosial rifahını yüksəltməkdir. Sosial siyasət çoxşaxəli olsa da, əsas məqsəd əhalinin güzəranını yaxşılaşdırmaqdır. Dövlət başçısının yeni iş yerlərinin açılmasına göstərdiyi diqqət də ölkənin iqtisadi inkişafı ilə yanaşı, əhalinin sosial vəziyyətinin yüksəldilməsinə yönəldilib.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin 6 ayında ölkədə 33,5 min yeni iş yeri açılmışdır. Diqqətəlayiq haldır ki, yeni iş yerlərinin 92 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Bu sahədə özəl sektorun önə çıxması aparılan iqtisadi islahatlar sayəsində mümkün olub. Ona görə ki, dövlət sahibkarlığın inkişafına böyük dəstək verir. İş adamlarının hüquqlarının qanunvericilik əsasında qorunması üçün genişmiqyaslı hüquqi islahatlar aparılıb, həmçinin sahibkarlara bir çox güzəştlər edilib. Bunun sayəsində özəl sektor inkişaf edərək ölkədə kapital qoyuluşunda da önəmli rol oynayır. Digər tərəfdən, dövlət-özəl sektor tərəfdaşlığı da sahibkarlığın inkişafını stimullaşdırır. Bir sözlə, özəl sektorun inkişafı həm də yeni iş yerlərinin yaradılmasına geniş imkanlar açır.

Hazırda Avropa ölkələrində əmək qabiliyyətli əhali sarıdan problemlər var. Bir çox dövlətlər vaxtaşırı ölkənin nə qədər əmək qabiliyyətli insana ehtiyac olduğu barədə məlumat verir. Həmin ölkə işçi qüvvəsinə ehtiyacını ödəmək üçün əmək miqrantları qəbul etməyə məcbur olur. Bizdə isə bu sahədə vəziyyət yaxşıdır. Hazırda ölkə əhalisinin 7 faizi ahıl, 70 faizi iş qabiliyyətlidir. Həmçinin bu sahədə aparılan tədqiqatlar onu göstərir ki, 2050-ci ildə iş qabiliyyətli əhalinin payı dəyişməsə də, ahıl əhalinin sayı artacaq. Belə hal indidən bir sıra zəruri sosial tədbirlərin görülməsini tələb edir. Bu məqsədlə sosial dəstək tədbirləri artırılmalı və sosial sığorta sistemi gücləndirilməlidir. Eyni zamanda əmək bazarı daha da strukturlaşdırılmalı, sosial sığorta ödənişlərinin yetərliliyi təmin edilməlidir ki, gələcəkdə sosial ödənişlərin verilməsində problem yaranmasın.

Yeni iş yerlərinin açılması və əmək müqaviləsinin bağlanması gələcəkdə ahıl əhalinin etibarlı sosial müdafiəsi üçün başlıca şərtdir. Bu üzdən dövlət çalışan işçilərin əmək müqaviləsinin bağlanmasına xüsusi diqqət yetirir. Görülən tədbirlər sayəsində son 4 ildə əmək müqavilələrinin bağlanması 30 faiz artmış və 400 min yeni əmək müqaviləsi imzalanmışdır. Həmçinin həssas təbəqədən olan şəxslərin əmək fəaliyyəti ilə məşğul olması üçün Dünya Bankının dəstəyi ilə 55 min mikro və kiçik biznes strukturu yaradılmışdır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yeni iş yerlərinin açılmasında aktiv rol oynayır. Belə ki, agentlik yeni bizneslərin yaradılmasına dəstək göstərir. Tibb xidmətlərini vahid platformada birləşdirən "Plast" MMC tərəfindən "plast.az" tibb xidmətləri portalı yaradılıb.

KOBİA-dan verilən məlumata görə, platformanın məqsədi onlayn şəkildə vətəndaşlara tibbi xidmətlər göstərməkdir. Bunun üçün özəl klinikalar tərəfindən göstərilən xidmətlər "plast.az" onlayn platformasında yerləşdiriləcək. Sayt xidmətlə yanaşı, həm də maarifləndirmə platformasıdır. Portalın yaradılmasına dövlət dəstəyi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən təmin edilib. Belə ki, KOBİA tərəfindən "Plast" MMC-yə "Startap" şəhadətnaməsi verilib, onlayn platformanın yaradılmasına məsləhət, peşəkar kadr potensialının formalaşdırılması, marketinq, Sumqayıt şəhərində fəaliyyət göstərən özəl klinikalarla əlaqələndirmə həyata keçirilib. Agentliyin Sumqayıt KOB İnkişaf Mərkəzi tərəfindən isə təlim, digər dəstək və xidmətlər göstərilib. Sumqayıt şəhərində fəaliyyət göstərən özəl klinikaların iştirakı ilə "Plast" layihəsinin təqdimatı keçirilib. Tədbirdə tibb xidmətlərinin onlayn platforma üzərindən təqdim olunması və bunun üstünlükləri barədə məlumat verilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb. Bu layihə də yeni iş yerlərinin açılmasına imkan verəcək ki, işsiz vətəndaşlar da bundan faydalanacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## İordaniya ilə Azərbaycanın iqtisadi zonaları arasında anlaşma memorandumu imzalanıb

İordaniyanın Aqaba Xüsusi İqtisadi Zonası ilə Ələt Azad İqtisadi Zonası arasında əməkdaşlıq və təcrübə mübadiləsinə dair anlaşma memorandumu imzalanıb.



Aqaba şəhərində keçirilən mərasimdə sənədi Aqaba Xüsusi İqtisadi Zonasının Müvəkkillər Şurasının sədri Nayef Baxit və Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun sədr müavini İsmayıl Manafov imzalayıblar.

Mərasimdən sonra çıxış edən İ.Manafov qeyd edib ki, anlaşma memorandumunda iki dost ölkədəki azad iqtisadi zonalar arasında əməkdaşlıq, investisiyaların həcminin artırılması, müxtəlif texniki və inzibati məsələlər öz əksini tapıb.

Nayef Baxit bildirib ki, Azərbaycanın Ələt Azad İqtisadi Zonası ən müasir tələblərə cavab verir və rəhbərlik etdiyi qurum onunla əməkdaşlıqda maraqlıdır. O əlavə edib ki, azad iqtisadi zonaların idarəçiliyi sahəsində təcrübə mübadiləsi hər iki tərəf üçün faydalı olacaq.

## Birdəfəlik ödəmə ilə təmin edilən müharibə əlillərinin sayı 15 mini ötüb

Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan yeni sosial dəstək proqramı çərçivəsində birdəfəlik ödəmə ilə təmin edilən müharibə əlillərinin sayı artıq 15000-i ötüb.

Proqram 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş şəxsləri, onlardan vəfat edənlərin vərəsələrini əhatə edir.

Onlara proaktiv qaydada birdəfəlik ödəmə təyin edildikdən sonra həmin vəsait bank hesablarına köçürülür və bu barədə SMS göndərilir.

E-sistemlərdə, habelə müvafiq arxivlərdə 1997-ci ilin 2 avqust tarixinədək hərbi xidmət zamanı aldığı xəsarətlə bağlı məlumat olmadığı üçün proaktiv qaydada birdəfəlik ödəmə təyin edilməmiş şəxslər, habelə birdəfəlik ödəməni almaq hüququ olan şəxs vəfat etmişsə, vərəsələri müvafiq sənədləri https://sosial.gov.az/post_576347 linkində qeyd edilən qaydada təqdim etdikdə onlara da qeyd olunan ödənişlər təyin olunaraq hesablarına köçürülür.

## "Technest" Təqaüd Proqramının 135 təqaüdçüsü regionlarda işlə təmin olunacaq

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və Azərbaycan HR İnstitutunun tərəfdaşlığı çərçivəsində "Technest" Təqaüd Proqramının heyəti nüfuzlu şirkətlərin HR menecerləri ilə bir araya gəlib.

Agentlikdən bildirilib ki, 15 qabaqcıl şirkətin iştirak etdiyi görüşdə İKT üzrə yerli mütəxəssislərin yetişdirilməsini sürətləndirmək, əmək bazarında tələb və təklif arasında balansı tənzimləmək və ən əsası milli İKT kadr bankını yaratmaq əsas müzakirə mövzularından olub. Görüşdə işəgötürənlərin İKT sahəsi üzrə kadr ehtiyacının "Technest" təqaüdçüləri ilə təmin olunması istiqamətində fəaliyyət planı təqdim edilib.

Eyni zamanda görüş iştirakçıları regionlarda İKT üzrə mütəxəssislərin yetişdirilməsi və kadrların bölgələrdə işlə təmin olunması məsələsinə də toxunublar. İlk addım olaraq 135 "Technest" təqaüdçüsünün regionlarda işlə təmin olunması razılaşdırılıb.

Azərbaycan HR İnstitutunun rəhbəri Emil Hüseynov bildirib ki, "Technest" Təqaüd Proqramının təqaüdçüləri hesabına regionlarda İKT üzrə mütəxəssis ehtiyacının qarşılanması olduqca təqdirəlayiqdir: "Technest təqaüdçüləri artıq əmək bazarında rəqabətədavamlı və peşəkar kadrlar kimi tanınırlar. Regionlarda yaşayan gənclərin ödənişsiz olaraq İKT təhsili alması və regionlarda da işlə təmin olunması işsizliyin azaldılması və əhalinin rifahının artmasına önəmli töhfə verəcək. Bu baxımdan "Technest" proqramının rolu əvəzsizdir".

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Təhsil, təqaüd və rəqəmsal savadlılıq şöbəsinin rəhbəri Fatimə Ələkbərova sözügedən əməkdaşlıqla bağlı qeyd edib ki, "Technest" brendi artıq əmək bazarında tanınır və paytaxt Bakı ilə yanaşı, regionlarda yaşayan sakinlər üçün də əlçatandır: "Hazırda 800-ə yaxın məzunumuz var və onlardan 200-ü tanınmış müəssisələrdə işlə təmin olunublar. 2022-2023-cü tədris ilində isə məzunlarımızın sayını 2000-ə çatdırmaq niyyətindəyik. Azərbaycan HR İnstitutu ilə əməkdaşlıq çərçivəsində 135 məzunumuzun regionlarda işlə təmin olunması uğurlu tərəfdaşlığın başlanğıcıdır".

## Lerikdə bu il 200 min tona yaxın kartof tədarükü gözlənilir

Keyfiyyətinə, dadına görə tanınan Lerik kartofu yüksək alıcılıq qabiliyyətinə malikdir. Bunu yaxşı bilən yerli fermerlər kartof əkininə daha çox maraq göstərirlər. İkinci çörək adlandırılan kartofun indi Lerikdə yığım dövrüdür.

Ucqar dağ rayonu olan Lerikdə əhalinin əsas məşğuliyyətlərindən biri də kartofçuluqdur. Kartof rayonun daha çox dağlıq ərazilərində yetişdirilir. Bu il əkin aparılan 1537 hektar sahənin bu günədək 1200 hektarının məhsulu yığılıb. 15 min 120 ton məhsul əldə edilib.

Lerik rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin aparıcı məsləhətçisi Şamxal Quliyevlə söhbət zamanı bildirdi ki, 1537 hektar kartof sahəsinin 250 hektarı Kələxan ərazisində əkilib: "Lerik kartofunun alıcısı çoxdur. Fermerlərə kömək məqsədilə dövlət tərəfindən hektara 280 manat subsidiya ödənilir. Bu da məhsuldarlığa, gübrə götürülməsində fermerlərə kömək olur".

Elə Kəlvəz kənd sakini Nəsimi Ağayevi torpağa bağlayan da dövlətin bu sahəyə dəstəyidir. Müəllim işləsə də, boş qalan zamanında təsərrüfatla məşğul olur. Qardaşları ilə birgə arpa, buğda, kartof əkir, əlavə gəlir qazanır: "Torpaqlarımız buğda, arpa, kartof əkini üçün çox əlverişlidir. Biz arpa və buğda biçinini yeni bitirmişik. Hazırda kartof yığımı mövsümündəyik. Məhsulumuz boldur. Bu il 5 hektar sahədə keyfiyyətli kartof əkmişik". Dəmyə şəraitində becərilən kartofdan hektara 9-10 ton məhsul yığılır. Yaxşı qulluq olunan sahələrdən daha çox kartof götürülür. Məhsul istehsalçıları bu il İran və Rusiya, bəzi ərazilərdə isə Pakistandan gətirilmiş kartof toxumu əkiblər. Təbii şəraitdə yetişdirdiklərindən dağ kartofuna tələbat da çox olur. Kəlvəz kənd sakini Dəyanət Ağayev deyir ki, məhsulu Lənkəran bazarında satır. "Sifarişin çoxu Rusiyadan olur. Bakının bazarlarına da göndəririk. Buradakı qiyməti 60-65 qəpik arası dəyişir. Məhsulumuz aprel ayınadək qalır. Gübrələrdən az istifadə edirik. Təbii yetişdirməyə çalışırıq".

Təsərrüfatçılar texnika sarıdan korluq çəkmirlər, müxtəlif təyinatlı qoşqulardan istifadə edərək, həm əkin, həm də yığım apara bilirlər. Qeyd edək ki, məhsul yığımı sentyabrın sonunadək davam edəcək. Bu il kartof sahələrindən ümumilikdə 200 min tona yaxın kartof tədarükü gözlənilir.



# Meşəətrafı kəndlər də qazlaşdırılır

## Ölkədə əhali abonentləri üzrə qazlaşma 96,3 faizdir

Bu il Azərbaycanın müxtəlif şəhər və rayonlarında 69 kənd və 62 yaşayış massivinin mavi yanacaqla təchiz edilməsi nəzərdə tutulmuşdur. İlin həmin qazlaşdırma planına uyğun olaraq işlər uğurla davam etdirilir.

3 kənd və 9 yaşayış massivinə artıq qaz verilib. Hazırda 40 kənd və 31 yaşayış massivində qazlaşma işləri aparılır, 5 kənd və 19 yaşayış massivi istismara qəbul prosesindədir. 7 kənd və 3 yaşayış massivində isə qazlaşma işlərinin aparılması nəzərdə tutulur.

"Azəriqaz" İstehsalat Birliyi rəsmisinin sözlərinə görə, ilin əvvəlində yaranan müəyyən səbəblərdən gecikmələr olsa da, proqramda nəzərdə tutulan 69 yaşayış məntəqəsinin 55-ində qazlaşmanın bu il tamamlanması gözlənilir. 14 yaşayış məntəqəsində işlərin yekunlaşması isə 2023-cü ilə keçid alacaq. Cari ildə qazlaşdırılacaq məntəqə və yaşayış massivlərinin əksəriyyəti cənub bölgəsindədir.

Son 13 ildə Azərbaycanda 1700-dən çox yaşayış məntəqəsi qazlaşdırılıb. Beş il əvvəl ölkəmizdə qazlaşma səviyyəsi təqribən 82 faiz idi. Dövlət dəstəyi ilə aparılan genişmiqyaslı qazlaşdırma işləri nəticəsində hazırda ölkə ərazisində əhali abonentlərinin qazlaşma səviyyəsi fərdi yaşayış evlərinin sayına görə 96,3 faiz təşkil edir.

Qazlaşmayan bir sıra yaşayış məntəqəsi mövcuddur. Bunlar əsasən ucqar yaşayış məntəqələri, mənbələrdən uzaq olan kəndlər və ev sayı az olan ərazilərdir. 400-dən çox qazlaşmayan meşəətrafı məntəqə var. Onlardan 235 yaşayış məntəqəsinin qazlaşdırılması texniki-iqtisadi cəhətdən səmərəlidir. Bu il 25 belə kəndin qazlaşdırılması nəzərdə tutulub. Əsas məqsəd əhalinin sosial rifahının, turizm imkanlarının və ən vacib məsələlərdən biri olan ekoloji vəziyyətin yaxşılaşdırılması, meşələrə mənfi təsirlərin minimallaşdırılmasıdır. İlkin hesablamalara görə, təxminən 240 milyon manata yaxın vəsait tələb olunacaq. Bu vəsait təkcə 235 kəndin qazlaşdırılması üçün deyil, eyni zamanda bu kəndlərə çəkiləcək daşıyıcı xətlərin üzərində yerləşən digər meşəətrafı ərazilər üçün də nəzərdə tutulur.

Hazırda ölkə üzrə yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı 2023-2027-ci illəri əhatə edəcək proqram hazırlanır. Bu proqrama əsasən, 320 yaşayış məntəqəsinin qazlaşdırılması nəzərdə tutulub ki, onlardan 235-i məhz meşəətrafı, qalanları isə həmin kəndlərə nisbətən yaxın, ancaq meşəətrafı olmayan məntəqələrdir.

İşğaldan azad olunan ərazilər istisna olunmaqla indi respublika üzrə ümumi 979 qazlaşmayan ərazimiz qeydə alınıb. Onlardan 426-sı meşəətrafı yaşayış məntəqələridir. Bu ərazilər sırasında qazlaşması texniki-iqtisadi cəhətdən səmərəsiz kimi qiymətləndirilən yaşayış məntəqələri var. Bu məsələ üzrə "Azəriqaz" tərəfindən dövlətə müraciət olunub ki, onların digər alternativ mənbələrdən istifadə etməklə yanacaqla təminatına baxılsın.

Qeyd edək ki, qaz təchizatının yaxşılaşdırılması üçün hər il davamlı olaraq istehsalat birliyi tərəfindən qaz xətlərinin yenidən qurulması və əsaslı təmir işləri aparılır. Şəbəkənin demək olar ki, 70 faizə yaxını yenilənib, 30 faizə yaxını isə əvvəlki dövrdən qalmış boru xətlərindən ibarətdir. 6-7 min kilometrə yaxın yüksəkriskli qaz xətləri də var. Bunların əksəriyyəti yeraltı boru xətləridir. Hər il bu boru xətlərində diaqnostika aparılır və nəticələrə uyğun olaraq yüksəkriskli olan hissələr əsaslı təmir edilir, yaxud yenidən qurulur.

Onu da vurğulayaq ki, Azərbaycanda qazlaşdırma dövlətin sosial siyasətinin ayrılmaz hissəsini təşkil edir. Regionların sosial-iqtisadi inkişafına yönəldilən birinci dövlət proqramına start verildiyi 2004-cü ildən indiyədək bu istiqamətdə genişmiqyaslı işlər həyata keçirilib.Təkcə keçən il ölkəmizin şəhər və rayonlarında ümumilikdə 100-ə yaxın yeni yaşayış massivi qazla təmin olunub. 200-dən artıq şəhid ailəsi və müharibə iştirakçısının fərdi yaşayış evi isə "Azəriqaz"ın daxili imkanları hesabına qazlaşdırılıb.

Son 18 ildə mavi yanacaqla təmin edilən yaşayış məntəqələrinin, kənd və qəsəbələrin isə sayı yüzlərlədir. Bunlar uzun müddət təbii qaz almayan, eləcə də indiyədək qazlaşdırılmayan ərazilər idi. Beləliklə, qaz xətləri hətta sovet dönəminin ən inkişaflı illərində mavi yanacaqdan istifadə olunmayan yerlərədək çatıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Səkkiz ayda 13 min tonadək kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib

Bu ilin yanvar-avqust aylarında 12,9 min ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib.

Dövlət Gömrük Komitəsi xəbər verir ki, idxal edilən kərə yağı və süddən hazırlanmış digər yağların dəyəri 74,1 milyon dollar olub.

Xatırladaq ki, ötən ilin eyni dövründə dəyəri 50,1 milyon dollar olmaqla 9942 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib.

## Şamaxı taxılçıları payızlıq səpinə başlayıblar

Şamaxı rayonunda taxılçılıqla məşğul olan fermerlər və fiziki şəxslər payızlıq taxıl səpini kampaniyasına start veriblər.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, bu mövsümdə 42 min hektar sahədə səpin aparılacağı gözlənilir. İlkin olaraq əkinə şimal ərazilərdə, o cümlədən Qızmeydan, Dəmirçi və bir sıra digər inzibati ərazi dairələrdə başlanıb. Bir neçə gündə 300 hektar sahədə səpin aparılıb. Bunun 270 hektarı buğda, 30 hektarı isə arpadır. Hələlik səpində 17 ədəd texnikadan istifadə olunur.

# Goranboyda şəhid ailələri və qazilərlə görüş keçirilmişdir



Görüşü giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev açaraq, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad edilməsində göstərdiyi şücaətdən danışmışdır.

Diqqətə çatdırmışdır ki, Birinci Qarabağ savaşında olduğu kimi, 44 günlük Vətən Müharibəsində də goranboylular qəhrəmancasına döyüşmüş, 56 nəfər goranboylu şəhidlik zirvəsinə ucalmış, 63 nəfər fiziki sağlamlığını itirmişdir.

Görüşdə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı və əsaslı yenidənqurma, tikinti və bərpa işlərindən də ətraflı söhbət aparılmışdır.

Sonra söz Şəhid ailələrinin üzvlərinə və qazilərə verilmişdir. Onlar çıxış edərək göstərilən diqqətə, sosial qayğılarının öyrənilməsinə və operativ həlli ilə bağlı verdiyi tapşırıqlara görə Prezident İlham Əliyevə və Birinci vitze-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

Tədbirdə şəhid ailələrinə və qazilərə maddi kömək göstərilmişdir.

# "Şuşa ili" çərçivəsində tədbir



Naftalan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naftalan Reabilitasiya Mərkəzində "Şuşa ili" çərçivəsində "Şuşa, tarixi Zəfərin şahidi şəhər" adlı tədbir keçirilmişdir.

Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə çıxış edənlər Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında sərəncamının mühüm siyasi və tarixi əhəmiyyəti olduğunu diqqətə çatdırmış, dövlət başçısının bu qərarının eyni zamanda xalqımızın tarixinə, mədəni dəyərlərimizə xüsusi diqqətin və böyük ehtiramın göstəricisi olduğunu qeyd etmişlər. 30 illik işğala 44 gündə son qoyan rəşadətli Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlığın, ölkəmizin mədəniyyət paytaxtı elan edilən Şuşada, eləcə də digər işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin hər bir azərbaycanlıda qürur və iftixar hissi yaratdığını diqqətə çatdırmışlar.

Şəhər icra hakimiyyətinin məsul əməkdaşları Şahmar Ədilov və Afət Mustafayeva, reabilitasiya mərkəzinin direktoru Pərvanə Əbdürrəhmanova və başqaları çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı müstəqil daxili və xarici siyasətin ölkəmizi beynəlxalq təşkilatların ən mötəbər üzvünə çevirdiyini, dövlət proqramlarının, eləcə də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın xalqımızın hərtərəfli inkişafı, sosial rifah halının yaxşılaşdırılması, sağlam həyat tərzinin təbliğ olunması baxımından böyük tarixi sənədlər olduğunu qeyd etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda beynəlxalq simpozium öz işinə başlayıb

"İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda beynəlxalq simpozium öz işinə başlayıb.



Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov müasir dünyada birgəyaşayış çərçivəsində ortaya çıxan böyük problemlərin əsas amillərindən birinin milli, irqi və dini müstəvidə artan ayrı-seçkilik olduğunu nəzərə çatdırıb. Bildirib ki, etiqadi və məzhəb zəminində baş verən ayrı-seçkilik və münaqişələr elm və irfandan uzaq olan bəzi dini qrupları müsəlman dünyasına yönəldilmiş planların könüllü iştirakçılarına çevirir.

A.Şirinov bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan dini dəyərlərə hörmət və qayğı, eyni zamanda birgəyaşayış ənənələrinin təbliğinə əsaslanan nəcib siyasəti hazırda Prezident İlham Əliyev uğurla davam etdirir. Simpoziumun islam mədəniyyətində birgəyaşayış təcrübəsinin tədqiqinə öz töhfəsini verəcəyindən əmin olduğunu vurğulayan AİI rektoru tədbirin işinə uğurlar arzulayıb.

Beynəlxalq simpozium iştirakçılarını salamlayan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda birgəyaşayış ənənəsi, milli-mənəvi miras və dövlət siyasəti barədə danışıb. Vurğulayıb ki, islam Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən biri, onun tarixinin ayrılmaz tərkib hissəsidir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan, milli-mənəvi dəyərlərə qayıdışın əsasını qoyan, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərən, ölkədə dini etiqad, inanc azadlığını tam təmin edən dövlət-din münasibətləri modelini Prezident İlham Əliyev də uğurla davam etdirməkdədir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da həm ölkə daxilində, həm də ölkə xaricində dini abidələrin, ibadət evlərinin təmir və bərpa olunmasında, dini-mədəni irsimizin qorunub saxlanmasında, milli-mənəvi dəyərlərimizin dünyada tanıdılmasında, habelə dini abidələrin bərpasında əvəzsiz xidmətləri var.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, professor Mevlüt Erten qeyd edib ki, islam mədəni mühitinin birgəyaşayışla bağlı bir çox dəyərə sahib olduğunun şahidiyik. Mevlüt Erten qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın rolu xüsusi vurğulanmalıdır.

İzmir Katip Çelebi Universitetinin rektoru, professor Saffet Köse, "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetinin rektoru, professor Məhəmməd əl-Şəhhat əl-Cindi, Müsəlman İnstitutunun sədri Sahibzada Sultan Ahmed Ali, Bolqar İslam Akademiyası rektorunun köməkçisi Rustem Gilmutdinov, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev çıxış edərək bildiriblər ki, "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda beynəlxalq simpozium islam mədəniyyəti kontekstində müsəlman aləmində birgəyaşayışla əlaqədar tarixi təcrübə və nümunələri araşdıraraq gələcək nəsillərin doğru istiqamətdə addımlamasına öz töhfəsini verəcəkdir.

***"Azərbaycan"***

# Akademik Rəfiqə Əliyevanın məzarı ziyarət olunub



Sentyabrın 20-də Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru professor, Əməkdar elm xadimi Rəfiqə Əliyevanın 90 illiyi tamam olur.

AZƏRTAC xəbər verir ki, Bakı Dövlət Universitetinin (BDU) kollektivi bu münasibətlə Fəxri xiyabana gələrək akademik Rəfiqə Əliyevanın xatirəsini yad edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.

Qeyd edək ki, Rəfiqə Əliyeva ali təhsilini 1951-1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Kimya fakültəsində alıb. Əmək fəaliyyətinə Azərbaycan Milli Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda (indiki akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu) kiçik elmi işçi vəzifəsində başlayıb. 1960-cı ildə ADU-nun Analitik kimya kafedrasında analitik kimya ixtisası üzrə aspiranturaya qəbul olub. 1964-cü ildən ömrünün sonuna qədər universitetin Analitik kimya kafedrasında işləyib və assistent, baş müəllim, dosent, professor vəzifəsinə qədər yüksəlib. 1970-ci ildə analitik kimya ixtisası üzrə "Germaniumun bəzi üzvi reagentlərlə əmələ gətirdiyi birləşmələrin spektrofotometrik tədqiqi və onun fotometrik metodla təyini" mövzusunda namizədlik, 1999-cu ildə isə "d-, f- elementləri və germaniumun tərkibində N-, S-, O- olan liqandlarla müxtəlif liqandlı kompleksləri və onların analitik tətbiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1999-cu ildə professor elmi adını alıb və Analitik kimya kafedrasının professoru vəzifəsində çalışıb. 2001-ci ildən ömrünün sonunadək BDU-da onun təşəbbüsü ilə yaradılmış "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasının müdiri işləyib. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. Azərbaycanda analitik kimya ixtisası üzrə ilk qadın akademikdir. Ümumilikdə 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olmuş akademik ömrünün böyük hissəsini BDU-da ixtisaslı kadrların hazırlanmasına sərf edib.

Akademik Rəfiqə Əliyevanın əziz və unudulmaz xatirəsi öz taleyini bağladığı və inkişafına böyük töhfələr verdiyi BDU-da həmişə ehtiramla yad edilir. Yaxın günlərdə Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə görkəmli alimin 90 illik yubileyinə həsr edilən "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək.

# Erməni faşizmi cinayət əməllərini davam etdirir

*Əvvəli 1-ci səh.*

Onların bilərəkdən, nişan alaraq atdıqları güllələr nəticəsində dinc Azərbaycan vətəndaşları yaralanır, həlak olurlar. Son günlər baş verən hadisələr bunu bir daha göstərdi.

## Dinc azərbaycanlıları hədəfə alan erməni vandalları

Sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törədilən genişmiqyaslı təxribat nəticəsində iki mülki şəxs - Kəlbəcər rayonu ərazisində heyvandarlıqla məşğul olan Goranboy rayonunun Veyisli kəndində yaşayan Kəlbəcər rayonu Bozlu kənd sakini, 1975-ci il təvəllüdlü Asim İsa oğlu Musayev və Goranboy rayonunun Qaraçinar kəndində yaşayan Kəlbəcər rayonu Ağdaban kənd sakini, 1984-cü il təvəllüdlü Arzuman İman oğlu Orucov yaralandılar.

Yenə də əlinə silah almamış, öz gündəlik işləri ilə məşğul olan, halal zəhməti ilə ailəsini dolandıran iki dinc sakinimiz Ermənistan silahlı qüvvələrinin hərbi cinayətkarlığının ağrı-acısını çəkdi.

1980-ci illərin sonlarından başlayaraq Qarabağı münaqişə ocağına çevirəndə də erməni quldurları dinc Azərbaycan sakinlərini hədəfə almışdılar. Qarşılarına çıxanlara aman verməmişdilər. Birinci Qarabağ müharibəsində minlərlə dinc sakin - uşaq, qadın, qoca, gənc yalnız azərbaycanlı olduğu üçün erməni silahlıları tərəfindən atəşə tutulmuş, yaralanmış, dəhşətli işgəncələrlə qətlə yetirilmiş, əsir saxlanılmışdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin Xocalıda törətdikləri soyqırımı isə nəinki azərbaycanlıların, bütün insanlığın faciəsi olmuşdu.

1994-cü ildə atəşkəs elan olundu. Ancaq Ermənistan dövləti heç zaman öz təcavüzkar siyasətindən uzaqlaşmadı, bəşəri və insani dəyərlərə, beynəlxalq hüquq normalarına və konvensiyalara məhəl qoymadı, terror və soyqırımı aktları törədərək hərbi cinayətlər həyata keçirdi.

## Terrorçu Ermənistana beynəlxalq müstəvidə layiqli cavab verilməlidir

2020-ci il sentyabrın 27-də səhər saat 6:00 radələrində düşmən növbəti dəfə iriçaplı silahlardan, minaatanlardan, müxtəlif artilleriya qurğularından istifadə etməklə təmas xəttində yerləşən kəndlərimizə, hərbi mövqelərimizə genişmiqyaslı hücumlara başladı. Gəncə, Mingəçevir şəhərlərində mülki əhalinin yaşadığı məntəqələr hədəfə alınaraq uzaq və yaxın mənzilli artilleriya qurğularından raket atəşinə tutuldu. Mülki şəxslər arasında həlak olanlar və yaralananlar var idi, dinc əhaliyə məxsus çoxlu ev dağıdıldı, təsərrüfatlara ciddi ziyan dəydi.

Həmin gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciət etdi. Dövlət başçısı bildirdi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmənin atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nətcəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi dövründə də Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqda, dinc əhaliyə qarşı terror əməlləri törətməkdə davam etdi. Ermənistan silahlı qüvvələri Gəncə, Bərdə, Beyləqan, Tərtər və digər yaşayış yerlərimizdə qətliam aktı həyata keçirməklə beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasının qaydalarını kobud surətdə pozdular.

Bu fakdır ki, Ermənistan beynəlxalq hüququ heçə sayır, əhalinin zəif təbəqəsi olan uşaqlara, qadınlara, qocalara, dinc əhaliyə qarşı güc tətbiq etməkdən çəkinmir. Ermənistan silahlı qüvvələrinin mülki insanları atəşə məruz qoyaraq yeni-yeni hərbi cinayətlər törətməkdə davam etməsinə isə beynəlxalq təşkilatların, beynəlxalq birliyin gərəkli cavab verməməsi, təzyiq göstərməməsi təəssüf doğurur. Bu, terrorçu, işğalçı dövlətin - Ermənistanın beynəlxalq müstəvidə məsuliyyətə cəlb edilməməsi, cəzasız qalması regionda sülhün, əmin-amanlığın bərqərar olunmasına da böyük zərbə vurur.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

*Əvvəli 1-ci səh.*

**21 Sentyabr Beynəlxalq Sülh Günüdür**

# Sülhə, sabitliyə, təhlükəsizliyə çağırış

Ənənəvi olaraq Nyu Yorkda düzənlənən BMT Baş Assambleyasının sessiyalarının gündəliyində planetimizin qorunması üçün sülh, sabitlik, təhlükəsizlik kimi əhəmiyyətli məsələlər yer tutur. Yoxsul ölkələrdə xəstəlik, ana və uşaq ölümlərinin qarşısının alınması, yoxsulluq və aclıqla mübarizə yolları ilə bağlı müzakirələr aparılır, əhalisi aclıqdan, maddi vəziyyətdən əziyyət çəkən xalqlara yardımların ayrılması ilə bağlı fikirlər bildirilir. Qarşıya qoyulan məqsədlərə səyləri birləşdirməklə nail olmağın mümkünlüyü barədə ümumi qənaətə gəlinir.

2007-ci ilin 21 sentyabrında BMT-nin Baş katibi Pan Gi Mun "Sülh zəngi"ni çalaraq dünyanı bütün döyüş əməliyyatlarını, ədavəti 24 saat ərzində dayandırmaqla birdəqiqəlik sükuta səsləyərək demişdi: "Sülh bizim missiyamızdır, gündəlik axtarışlarımızın mövzusudur".

Azərbaycan dövləti, xalqı da ilin yalnız bir gününün deyil, bütün günlərinin sülh içərisində yaşanmasının tərəfdarıdır. XIX əsrin əvvəllərində ərazilərimizə köçürülən ermənilərə yaşamaq üçün yer verən, humanistlik göstərən azərbaycanlılar əsrlərdir ki, yaxşılıqlarına qarşı yamanlıqlar görüblər. Ermənilər yerləşərək yurd saldıqları Azərbaycanın əzəli torpaqlarını münaqişə ocağına çeviriblər. Tarixin hər ziddiyyətli, mürəkkəb dönəmində öz məkrli niyyətlərini, uydurduqları, özlərindən başqa kimsənin inanmadığı xülyalarını reallaşdırmaq arzusuna düşüblər. Havadarlarından da təlimatlar, həmçinin hər cür yardımlar aldıqdan sonra Azərbaycan xalqının bəlasına dönüblər. Xalqımıza qarşı qırğınlar, qətliamlar, terrorlar, soyqırımıları törədiblər. 1980-ci illərin sonlarında da sovet hakimiyyətinin çökməkdə olduğunu, qarışıqlıq yarandığını fürsət bildilər. Qarabağda azərbaycanlıların yaşayış məntəqələrinə hücumlar etməyə, soydaşlarımızı qətlə yetirməyə başladılar. Qanlı hadisələr göstərdi ki, Ermənistanın məqsədi Azərbaycandan yalnız yeni ərazilər qoparmaq deyil. Xislətində vandallıq olan ermənilər dəhşətli cinayətlər törətdilər, yalnız azərbaycanlı olduqları üçün körpələrə, hamilə qadınlara, qocalara belə aman vermədilər. 1990-cı illərin əvvəlində erməni quldurlarının törətdikləri təxribatlar nəticəsində baş verən Birinci Qarabağ müharibəsində Azərbaycana ağır zərbə dəydi. Ölkəmizin ərazisinin 20 faizi işğal edildi. Minlərlə azərbaycanlı şəhid oldu, əsir götürüldü. Evləri, yurdları Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən bir milyondan çox Azərbaycan vətəndaşı məcburi köçkün həyatı yaşamalı oldu.

Həmin ərazilərimiz otuz ilə yaxın Ermənistanın işğalında qaldı. Bu müddət ərzində işğalçılıq siyasətini davam etdirən Ermənistan BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərimizin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı 822, 853, 874, 884 nömrəli qətnamələrinin heç birinə əməl etmədi. Buna baxmayaraq, Azərbaycan Respublikası münaqişənin danışıqlar masasında həllinin tərəfdarı olduğunu bəyan etdi. İşğal altında olan ərazilərini müharibə yolu ilə geri qaytarmaq iqtidarında olsa da, dövlətimiz məqsədinin, niyyətinin sülh olduğunu əməlləri ilə göstərdi. Münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində ardıcıl və mühüm addımlar atdı.

## Dünyanı yalnız müharibələrə, münaqişələrə son qoymaqla təhlükəsiz etmək olar

1994-cü ilin mayında atəşkəs haqqında razılaşma imzalansa da, Ermənistan dövləti buna məhəl qoymadı, təcavüzkar siyasətini davam etdirdi. Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlarla intensiz atəşə tutdular. Əsgər və zabitlərimizi şəhid etdilər. Ermənistan təmas xəttinə yaxın olmayan ərazilərimizi, mülki əhalimizi belə atəşə tutmaqdan çəkinmədi.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ermənistana Azərbaycan xalqının səbrinin heç də hüdudsuz olmadığını dönə-dönə xatırlatması da sülh istəyindən irəli gəlirdi.

Dövlət başçısı bu münaqişənin həlli istiqamətində öz mövqeyini 2016-cı ilin Aprel döyüşlərindən sonra bir daha bildirdi. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında yaralı və şəhid hərbçilərin ailə üzvləri ilə görüşündə vurğuladı ki, biz bəyan etmişdik, birtərəfli qaydada atəşkəsi bərpa etməyə hazırıq, bir şərtlə ki, qarşı tərəf də atəşkəsə əməl etsin. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dedi: "Biz müharibə istəmirik, istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun. Düzdür, bu çətin prosesdir. Ancaq bilin ki, bütün əsas beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir. BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Azərbaycanın mövqeyini, həqiqəti əks etdirən qərar və qətnamələr qəbul ediblər. Düzdür, hələ ki bu qərarlar nəticəyə gətirib çıxarmayıb, ancaq bu qərar və qətnamələr məsələnin həlli üçün hüquqi əsasdır".

Dünya ictimaiyyəti, aparıcı dövlətlər, beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan münaqişəsinin illərdən bəri davam etdiyini görürdü. Təəssüf ki, Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsi istiqamətində qətiyyətli addımlar atılmırdı. Cəzasızlıq Ermənistan dövlətinin əl-qolunu açırdı, cinayət əməllərini davam etdirirdi.

Cəzasızlıq mühitinin əbədi olacağına özünü inandıran Ermənistanın Baş naziri Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə", o zamankı müdafiə naziri David Tonoyan isə "Yeni ərazilər üçün yeni müharibə" dedilər. Ermənistan dövləti öz mövqeyindən əl çəkmədi. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatları Vətən müharibəsinin başlanmasına səbəb oldu. Və nəticədə Azərbaycan tarixi ədaləti bərpa etdi. Torpaqlarımız işğaldan azad edildi. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il noyabrın 10-da imzaladıqları Birgə Bəyanatla başa çatan Vətən müharibəsinin nəticələri regionda real sülhün bərqərar olması üçün əsaslar yaratdı.

Təəssüf ki, Ermənistan dövləti yenə də məsuliyyətini dərk etmək istəmir. Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaqda davam etdi. Sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törədilən genişmiqyaslı təxribat nəticəsində isə Azərbaycanın səksən əsgər və zabiti şəhid oldu, iki mülki vətəndaşı yaralandı.

Bu onu göstərir ki, terrorçu Ermənistan dövləti də, ona himayədarlıq edənlər də sülhün əleyhdarlarıdır. Ancaq unudurlar ki, hansı qitədə, hansı ölkədə yaşamasından, hansı millətə, irqə mənsubluğundan asılı olmayaraq, bir Yer kürəsi var. Bu dünyanı müharibələrə, təxribatlara rəvac verməklə deyil, yalnız münaqişə ocaqlarını söndürməklə, sülhlə təhlükəsiz yerə çevirmək mümkündür.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın ilk "ASAN Həyat" kompleksi

## 6 il öncə Masallıda açılan mərkəz qısa müddətdə əhalinin böyük etimad və rəğbətini qazanıb

*Əvvəli 1-ci səh.*







Xüsusi zövqlə tikilən dördmərtəbəli "ASAN xidmət" mərkəzi "ABAD", kinoklub, incəsənət mərkəzi, "ASAN İntelektual" inkişaf mərkəzi, "ASAN Kafe" və həmçinin ombudsmanın Cənub Regional Mərkəzi kompleksdə fəaliyyət göstərir. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət həyata keçirilir. Fəaliyyət dövrü ərzində vətəndaşlara səyyar formada da xidmət göstərilib. Bu bölgədə səyyar xidmətlərdən 254 mindən çox vətəndaş yararlanıb.

İlk olaraq məlumat mərkəzində vətəndaşlara xidmət göstərən xanım əməkdaşlarla söhbətləşirik. Ləman Bağırova Bakı Slavyan Universitetinin məzunudur. Artıq 6 ildir ki, bu mərkəzdə çalışır. Yəni yarandığı gündən burada vətəndaşların xidmətindədir. Ləman deyir: "Bura artıq mənim üçün çox doğma məkana çevrilib. Çalışırıq ki, hər zaman gülərüz və nəzakətli şəkildə vətəndaşlara xidmət edək. Üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirmək üçün əlimizdən gələni edirik".

"ASAN xidmət" mərkəzlərində ilk gündən ictimai və sosial məsuliyyəti artıran könüllülük fəaliyyəti həyata keçirilir. Masallı Regional "ASAN xidmət" Mərkəzində fəaliyyət göstərən 667 könüllüyə, səyyar "ASAN xidmət"də isə 391 könüllüyə sertifikatlar verilib.

Hazırda bu mərkəzdə könüllü kimi vətəndaşların xidmətində olan Rabil Məmmədli, Türkan Ağazadə, Aysel Zeynalova, Aygün Məmmədova, Ramal Abıyevlə söhbət zamanı bəlli olur ki, onlar "ASAN xidmət" mərkəzlərində təcrübə toplayaraq elə bu kompleksdə daha məsul vəzifələrdə çalışmaq arzusundadırlar. Deyirlər ki, könüllü olmaq, ümumiyyətlə, insanların xoş niyyətindən irəli gəlir. Təmənnasız olaraq kiməsə kömək etmək üçün özləri xidmətə müraciət edirlər. Bu mərkəzdə də yaradıcılıq potensiallarını inkişaf etdirmək üçün lazım olan şərait və imkanlar yaradılıb. Könüllülər müqavilə əsasında 2 ay müddətində fəaliyyət göstərirlər. Müqavilədə göstərilən öhdəliklərlə 2 ay müddətində çalışan könüllülərə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən rəsmi sertifikat və xasiyyətnamə verilir.

Kompleksdə olduğumuz zaman mərkəzə gələn rayonun 85 yaşlı sakini Xudakərim Rəhimovun fikirləri diqqətimizi çəkdi: "Bura ancaq işim düşəndə gəlmirəm. Bu kompleks bizim kimi ağsaqqalların həm də istirahət mərkəzidir. Allah Prezidentimizin canını sağ eləsin ki, insanlar üçün belə rahat şərait yaradır. 49 il həkim işləmişəm, 11 ildir ki, pensiyaçıyam. "ASAN xidmət" yaranandan camaatımızın günü ağ olub. Çoxu kənd adamıdır. Yalnız şənbə-bazar günləri gəlib sənədlərini düzəldə bilirlər. Burada çalışanlar da sağ olsunlar, həftənin bütün günü işləyirlər. Xalqa xidmət bax, belə olar..."

Notariat xidmətinə ərizə vermək üçün mərkəzə gələn 64 yaşlı rayon sakini Xoşqədəm Əliyeva çox sevincli görünürdü. Bizimlə söhbətində o da xidmətdən çox razılıq etdi: "Eşq olsun Azərbaycan Prezidentinə! Xalqını düşünən dövlət başçısı görün insanlar üçün necə gözəl şərait yaradıb. Rahat şəkildə gəlirik, istədiyimiz sənədi alırıq. Bundan əvvəl küçələrdə, qapılarda qalırdıq. İndi bir mərkəzdə hər bir xidmət var. Adam bura daxil olanda əhvalı xoş olur".

Bir faktı da söyləyək ki, bu il avqustun 5-də Masallı "ASAN Həyat" kompleksində insan hüquqları üzrə müvəkkilin (ombudsman) Cənub Regional Mərkəzinin də açılışı olub. Mərkəzin burada yerləşməsi vətəndaşların sənədləşmə və bir çox məsələlərlə bağlı müraciətlərinin yerində həllinə imkan verir. Eyni zamanda yaradılmış şərait və elektron imkanlar müraciətçilərin vəzifəli şəxslər tərəfindən qəbul imkanlarını genişləndirməklə vətəndaş məmnunluğunun yüksəldilməsinə xidmət edir.

Bütün gördüklərimiz, şahidi olduğumuz reallıqlar bir məkanda - Masallı "ASAN Həyat" kompleksində cəmləşib. Həm "ASAN xidmət", həm də digər əyləncə və istirahət mərkəzləri vətəndaş rahatlığına xidmət edir. Kompleksə təşrif buyuran vətəndaşlar həm "ASAN xidmət" mərkəzinə hansısa sənədlə bağlı müraciət edirlər, həm də parkda istirahət edirlər. Gənclər isə asudə vaxtlarını intellektual inkişaf mərkəzində, kinoklubda keçirirlər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# "Shusha Chess 2022"

Shusha Chess 2022

## Mədəniyyət paytaxtımızda ilk rəsmi beynəlxalq yarış başlayır

Bu gün mədəniyyət paytaxtımız Şuşada ilk rəsmi beynəlxalq idman yarışı başlayır. Görkəmli şair və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr olunmuş turnirin açılış mərasimindən sonra püşkatma olacaq.





Bu gün həmçinin yarışda ilk turun görüşləri keçiriləcək. İki kateqoriya - kişilər və qadınlar arasında təşkil olunacaq turnirdə iştirakçılar rapid və blits üzrə yarışacaqlar. Hər kateqoriyada 10 şahmatçı mübarizə aparacaq. Həm kişilər, həm də qadınların yarışında qaliblər rapid və blits turnirlərindəki xallarının cəminə əsasən müəyyən ediləcək.

Kişilərin yarışında Azərbaycan təmsilçiləri Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Qədir Hüseynov, Rauf Məmmədov və Vasif Durarbəylidən başqa, çinli Van Xao, hindistanlı Santoş Gujrathi Vidit, iranlı Parham Maqsudlu, Türkiyə çempionu Mustafa Yılmaz və əfsanəvi özbək şahmatçı, 2004-cü ildə FİDE versiyası üzrə dünya çempionu olmuş Rüstəm Kasımcanov iştirak edəcəklər.

Qadınların turnirində isə milli komandamızın üzvləri Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Gülnar Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva ilə yanaşı Gürcüstan şahmatçıları Nana Dzaqnidze və Meri Arabidze, israilli Marsel Efroimski, polşalı Yolanta Zavadzka və Türkiyə çempionu Kübra Öztürk Örenli mübarizə aparacaqlar.

"Shusha Chess 2022" şahmat turnirinin ümumi mükafat fondu 150 min manat təşkil edir.

Bu turnir nəinki Şuşada, ümumilikdə Qarabağda Beynəlxalq Şahmat Federasiyasının (FİDE) bayrağı altında keçiriləcək ilk rəsmi beynəlxalq şahmat yarışı olacaq.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan "Natəvan" gəmisi üçün Wartsila W6L20 baş mühərrikin ehtiyat hissələrinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2022-ci il sentyabrın 29-u saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***


# Tələbələrin yataqxana qayğısı bitmir

## Problemin həlli yolları olsa da, ali məktəblərin heç bir təşəbbüsü yoxdur

Tələbəlik illəri ömrün şirin növrağıdır, özündə əbədi təəssüratları ehtiva edir: tələbə yoldaşları, müəllimlər, mühazirə otaqları və yeni arzuların doğulduğu tələbə yataqxanaları...





Bu tədris ili üçün ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında uğur qazanmış 48 min 608 nəfər də tələbəlik həyatına qədəm qoyub. Sentyabrın 15-dən etibarən respublikanın bütün təhsil müəssisələrində tədris prosesinə start verilib. Təbii ki, ali məktəblərə bu il qəbul olunan və bölgələrdən gələn tələbələrin həll etməli olduqları əsas məsələlərdən biri də yaşayış yeri ilə bağlıdır. Ona görə də tədris prosesinin başlaması ilə əlaqədar universitetlərin nəzdində fəaliyyət göstərən tələbə yataqxanalarının ümumi sayı, məişət şəraiti və icarə haqqı mövzusu aktuallaşıb.

### Tələbə sayı ilə tərs mütənasiblik

Mövzu ilə bağlı qısa araşdırma apardıq və aydın oldu ki, universitet yataqxanalarında yerlər son dərəcə məhduddur. Bəzi ali məktəblərin isə, ümumiyyətlə, yataqxanası yoxdur. Ona görə də tələbələr çıxış yolunu mənzil kirayələməkdə görürlər. Hər yeni tədris ilinin əvvəlində kirayə mənzil bazarında müşahidə edilən bahalaşma təsadüfi deyil. Nəzərə almaq lazımdır ki, kirayə mənzil qiymətləri bir çox hallarda tələbələrin büdcəsinə uyğun gəlmir.

Araşdırma zamanı dəqiqləşdirdik ki, ali təhsil müəssisələrinin yataqxanaları ümumi tələbatın təxminən 15 faizini ödəyir. Tələbə sayı ümumilikdə 20 minə yaxın olan Bakı Dövlət Universitetinin 220 nəfərlik, təxminən 18 min tələbəsi olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin isə müvafiq olaraq 320 və 240 nəfərlik yataqxanaları fəaliyyət göstərir. Bundan başqa, 10 mindən çox tələbənin təhsil aldığı Azərbaycan Memarlıq və İnşaat Universitetinin yataqxanası 252, 6 mindən çox tələbəsi olan Azərbaycan Dillər Universitetinin yataqxanası təxminən 200, 6 minə yaxın tələbəsi olan Lənkəran Dövlət Universitetinin yataqxanası isə 153 nəfərlikdir. Yataqxanalarında 968 tələbənin yaşaya biləcəyi Azərbaycan Tibb Universitetində təxminən 7 min tələbə təhsil alır. Həmçinin Bakı Slavyan Universitetinin 600 nəfərlik, Bakı Mühəndislik Universitetinin 300 nəfərlik, Sumqayıt Dövlət Universitetinin 250 nəfərlik yataqxanaları da ümumi tələbatı ödəmir.

### Mövcud vəziyyət təhsilin keyfiyyətinə mənfi təsir göstərir

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Fazil Mustafa qeyd edib ki, tələbələrin yaşayış yeri ilə bağlı çətinlikləri təhsilin səviyyəsinə ciddi şəkildə təsir göstərir: "Təəssüf ki, yataqxana problemi uzun illərdir davam edir. Tələbəyə yaşayışı üçün normal şəraitin yaradılmaması onun potensialını ortaya qoymaq imkanlarını da məhdudlaşdırır. Açığı, yataqxana probleminin həlli sadədir. Bunun üçün universitetlərin müəyyən qədər muxtariyyət əldə edərək pul qazanmaları kifayətdir. Belə olan halda ali təhsil müəssisələri sərbəst formada müqavilə bağlayaraq yataqxana tikib tələbələrin istifadəsinə verə bilərlər. Hətta bəzi universitetlərin yataqxana tikdirmək üçün torpaq sahələri də var. Vaxtında fürsətləri dəyərləndirməyən digər ali məktəblər isə dövlətdən güzəştli şərtlərlə torpaq sahəsi ala bilərlər. İstənilən halda problemin qısa zamanda həlli labüddür, çünki mövcud vəziyyət təhsilin keyfiyyətinə mənfi təsir göstərir. Tələbələr mənzillərin kirayə qiymətləri baha olduğu üçün ciddi narahatlıq keçirirlər".

Təhsil məsələləri üzrə ekspert Kamran Əsədov da tələbələr üçün əlverişli mühitin yaradılmasının vacibliyini vurğulayıb. Onun dediyinə görə, universitet yataqxanalarının sayı az olduğu üçün ümumi tələbat ödənmir. Təhsil siyasətimiz təhsilin hər kəs üçün əlçatan olmasına yönəldilib və bu istiqamətdə müəyyən addımlar atılır. Məsələn, ali məktəblərə qəbul imtahanlarında abituriyentlərə ikinci şansın verilməsi, universitetlərin tərkibində hazırlıq kurslarının yaradılması təhsilin əlçatanlığına xidmət edən addımlardır. Lakin abituriyentin universitetə qəbul olunması, müəyyən biliklər əldə etməsi əlçatanlığı tam təmin etmir. Keyfiyyətli təhsil alması üçün tələbəyə əlverişli şərait yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, dünyanın məşhur universitetlərinin reytinqlərdə ilk sıralarda olma səbəblərindən biri də tələbələr üçün yaradılan mühitdir. Dünyanın aparıcı universitetləri kampus şəraitində fəaliyyət göstərdikləri üçün tələbələr orada yataqxana, tıxac, kitab çatışmazlığı və s. problemlərlə üzləşmirlər. Yəni problemin həlli yollarından biri də kampusların tikilərək tələbələrin istifadəsinə verilməsidir.

Problemin həlli yollarından danışan K.Əsədov qeyd edib ki, bəzi universitet binalarının bölgələrə köçürülməsi bu baxımdan faydalı ola bilər. O vurğulayıb ki, iş adamları da aktivlik nümayiş etdirərək tələbələrin yataqxana probleminin qismən aradan qaldırılmasına kömək edə bilərlər.

Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti də daxil olmaqla bir sıra ali təhsil müəssisələrinin yataqxanalarında keçmiş məcburi köçkünlər məskunlaşıblar. Lakin problemin kökündə bu amil dayanmır. Məcburi köçkünlər həmin binalarda məskunlaşmasaydılar da, yataqxanalardakı yer sayının azlığı göstərir ki, bu problem mövcud olacaqdı.

Sözsüz ki, problemin həlli üçün tələbə yataqxanalarının sayı artırılmalıdır. Bu, ali təhsilin əlçatanlığının artırılması baxımından vacib hesab edilir. Eyni zamanda yataqxana probleminin həlli gənclərin təhsilə təşviqinə şərait yarada, rəqabət mühitini artıra bilər. Görünən odur ki, əksər ali təhsil müəssisələri tələbələrin narahatlığına səbəb olan yataqxana probleminin həlli istiqamətində ciddi tədbirlər həyata keçirmir. Problemin həlli yolları olsa da, ali məktəblərin heç bir təşəbbüsü yoxdur.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Paşinyana qarşı çevrilişi bu dəfə öz partiyası hazırlayır

## "Vətəndaş müqaviləsi" yeni baş nazir axtarışındadır

*Əvvəli 1-ci səh.*

Bu müzakirələr ölkə və dövlət nöqteyi-nəzərindən yox, hakimiyyətin qorunması baxımından aparılır. Fakt budur ki, partiya təmsilçiləri yaranmış münaqişə vəziyyətindən və artan daxili siyasi təzyiqdən son dərəcə narahatdırlar. Ona görə də onlar "a" və "b" planları üzərində düşünürlər ki, birdən-birə hakimiyyət müxalifətə keçməsin. Mənbə bildirir ki, hətta "Vətəndaş müqaviləsi" də Nikol Paşinyanı istefaya məcbur edə bilər.

Qeyd olunur ki, indi parlamentdə bu posta namizədi irəli sürmək və baş naziri seçmək variantını müzakirə edirlər. Hətta müdafiə naziri Suren Papikyanın namizədliyi ən aktiv şəkildə müzakirə olunur. Amma burada da "geosiyasi" oriyentasiyaların toqquşması müşahidə edilir. Çünki "Vətəndaş müqaviləsi"ndə heç də hamı qərbyönlü fikirlərə sadiq deyil. Mənbə bildirir ki, növbədənkənar seçkilərin keçirilməsi müzakirə olunan fors-major variantlardan biridir.

Erməni politoloq Edvard Antinyan bildirib ki, dövlət müharibəyə başlayanda bütün xalq ayağa qalxır, hamı hakimiyyət ətrafında birləşir. Müxalifətin aksiyaları əslində kortəbii bir toplantı idi, əslində onu idarə edənlər bir müddətdən sonra ortaya çıxdı: "Serj Sarkisyan və Robert Koçaryan".

Erməni politoloqun qənaətinə görə, mitinqlər biabırçı uğursuzluğa düçar olub, bundan sonra belə etirazların heç bir mənası yoxdur, çünki o uğursuzluq bütün aspektləri əhatə edib.

Bu arada dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərdiyi nəzərə çarpır. Xüsusən də Rusiyada rublun məzənnəsinin aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün böyük fəlakət sayılır. Əvvəlki illərlə müqayisədə Ermənistanda ərzaq məhsullarının qiymətlərində 11,5 faiz artım qeydə alınıb. İnflyasiya ilə yanaşı, insanların gəlirləri mütənasib şəkildə artmayıb və bu, erməni əhalisini daha da yoxsullaşdırıb. Ermənistan Mərkəzi Bankı isə inflyasiya qarşısında acizdir.

Ermənistanda ABŞ dollarının məzənnəsi ucuzlaşıb. Bu prosesin heç bir obyektiv iqtisadi səbəbinin olmadığı bildirilir. Dolların ucuzlaşması isə həmin valyuta ilə pul köçürmələri alan ailələrin gəlirlərinə mənfi təsir göstərir. Daxili ixrac da itkilərə məruz qalır. Onu da əlavə edək ki, xarici investorlar dolların "zəifliyi"nə görə Ermənistana marağını itirirlər.

Ermənistan Mərkəzi Bankı inflyasiya ilə mübarizə üçün maliyyələşdirmə dərəcəsini 1,25 faiz artıraraq 9,5 faizə çatdırıb. Dolların orta məzənnəsi avqust ayı ilə müqayisədə təxminən 26 dram azalıb. Əslində bu, idxal mallarının müəyyən qədər canlanmasına səbəb olmalı idi. Bununla belə avqust ayında sentyabr ayı ilə müqayisədə ümumi inflyasiya 2,3 faiz, o cümlədən ərzaq inflyasiyası 4 faiz təşkil edib. Göründüyü kimi, ABŞ dollarının "zəifləməsinə" və yenidən maliyyələşdirmə dərəcəsinin artırılmasına baxmayaraq, inflyasiya səngiməyib, əksinə, sürətlənib.

Bunlar Ermənistanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və ölkənin indi daha böyük sürətlə öz məhvinə doğru sürükləndiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




## Azercell abunəçilərinin nəzərinə

25 oktyabr 2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sistemində abunəçilərə təqdim edilən "GəncOl 2", "GəncOl 6" və "GəncOl 9" tarifləri daxilində "Zvuk", "Busuu", "iVi", "Bookmate" tətbiqlərinin istifadəsi üçün təqdim olunan 750 MB, 3 GB və 6 GB pulsuz mobil internet xidməti ləğv ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, eləcə də müvafiq tariflərin şərtləri barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com<http://www.azercell.com/>**), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

# 79 kiloqramdan çox psixotrop maddə aşkarlanıb

Psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində gömrükçülər tərəfindən daha bir uğurlu əməliyyat həyata keçirilib.

Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına plastik məmulatlar aparan 25LS673 dövlət nömrə nişanlı "Mercedes-Benz" markalı nəqliyyat vasitəsinə Culfa dövlət sərhədinin buraxılış məntəqəsində risk meyarı əsasında gömrük baxışı həyata keçirilib. Yoxlama zamanı nəqliyyat vasitəsinin qoşqusuna yüklənmiş 2688 ədəd plastik şotkaların boru şəkilli tutacaqlarında xüsusi üsulla gizlədilmiş, ümumi çəkisi 79 kiloqram 100 qram olan kristal halında psixotrop maddə - metamfetamin aşkar edilib.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsinə (qaçaqmalçılıq) uyğun olaraq cinayət işi başlanılıb.

*"Azərbaycan"*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmiri və abadlıq işlərinin satın alınması ilə bağlı açıq tender elan edir

Respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmiri və abadlıq işlərinin satın alınması üçün açıq tender elan edir.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərsiniz:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

| | |
|---|---|
| **Bankın adı:** | **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı** |
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **İBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır);*
- *AZS İSO 9001:2020, AZS İSO 14001:2020, AZS İSO 45001:2020 sertifikatları;*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmalar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 25 oktyabr 2022-ci il saat 11:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 02 noyabr 2022-ci il 17:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 03 noyabr 2022-ci il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Bakı Ayaqqabı fabriki" ASC hərbi və xüsusi işçi ayaqqabılarının istehsalı ilə məşğuldur. Fabrik aşağıdakı vəzifələr üzrə vakansiyalar elan edir

1. Daxili Auditor.
2. Büdcə üzrə iqtisadçı.
3. Hüquqşünas.
4. İnformasiya texnologiyaları üzrə mütəxəssis.
5. SƏTƏM üzrə mütəxəssis.
6. Baş mexanik.
7. İstehsalat üzrə müdir.
8. Keyfiyyətə nəzarət üzrə baş mütəxəssis.
9. Keyfiyyətə nəzarət üzrə texnik nəzarətçi.
10. İnsan resursları üzrə mütəxəssis.
11. Baş mühasib.
12. Böyük mühasib.
13. Aparıcı mühasib.
14. 1C proqramı üzrə mütəxəssis.
15. Satış və marketinq şöbəsinin müdiri.
16. Satınalma üzrə mütəxəssis.
17. Satış üzrə mütəxəssis (beynəlxalq).
18. Satış üzrə mütəxəssis (daxili).
19. Marketinq üzrə mütəxəssis.
20. Təchizat və təsərrüfat şöbəsinin müdiri.
21. Təchizat üzrə mütəxəssis.
22. Anbardar (mal-material və hazır məhsul üzrə).
23. Modelləşmə və dizayn şöbəsinin müdiri.
24. Modelçi - konstruktor.
25. Dizayner - 3D.
26. Texnoloq.
27. Böyük laborant.
28. Kimyaçı laborant.
29. Sex rəisi kəsim sexi üzrə.
30. Sex rəisi tikiş və tikmə sexi üzrə.
31. Sex rəisi formalaşdırma sexi üzrə.
32. Sex rəisi model ayaqqabı istehsalı sexi üzrə.
33. Sex rəisi elektro-mexanika sexi üzrə.
34. Usta (kəsim, tikiş və tikmə üzrə).
35. Usta (formalaşdırma avadanlığı üzrə).
36. Mühəndis - energetik.
37. Elektronçu.
38. Usta - pəstahçı.
39. Usta - çəkməçi.
40. Tornaçı.
41. Çilingər (avadanlıqlar üzrə santexnik, alətçi və s).

Əməkhaqqı namizədlərin bilik və bacarıqlarına uyğun olaraq müəyyənləşdiriləcək. Maraqlanan şəxslər CV-lərini **hr.baf.asc@gmail.com** ünvanına göndərə bilərlər.

Yalnız uyğun namizədlərlə əlaqə saxlanılacaq.

Elanlar 21.09.2022-ci il tarixdən 1 (bir) ay müddətində qüvvədədir.

***Rəhbərlik***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmilərə polad burazlar və birləşdirici bəndlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2022-ci il sentyabrın 27-si saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tabeliyində olan gəmilərə və struktur idarələrə tələb olunan müxtəlif elektrik lampalarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2022-ci il sentyabrın 30-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan mətbəx ləvazimatlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2022-ci il sentyabrın 30-u saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri

**ARYE QUTUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi Bakı Apellyasiya Məhkəməsinin hakimi İkram Şirinova anası

**HÖKÜMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə

e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6568
Sifariş 2654
Qiyməti 40 qəpik